# AVRO-2022: Azərbaycan və Ermənistan eyni qrupa düşüb




**18 yaşadək oğlan basketbolçular arasında Avropa çempionatının püşkü atılıb.**

C divizionunda mübarizə aparacaq yığmamız B qrupunda Ermənistan, Cəbəllütariq, Moldova və Lüksemburqa rəqib olub.

A qrupunda isə Monako, Malta, San-Marino, Albaniya və Andorra yer alıb. Turnir 2022-ci il iyulun 24-31-də baş tutacaq. örüşlər San-Marinonun Serravalle şəhərində təşkil olunacaq.

(səh.2)

# Türkiyə tərəfindən Azərbaycan hərbçilərinə təlim keçirilib



**"İki dövlət, tək millət" anlayışı ilə azərbaycanlı qardaşlarımızın yanında olmağa davam edirik.**

Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinə gəmi təlimatçılarının hazırlanmasına dair təlim keçirilib.

№ 29 (5551), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 fevral 2022-ci il (çərşənbə)




# Deputatlar dərmanların qiymətindən şikayətlənib

## Səhiyyə Nazirliyindən, TƏBİB-dən məsələyə baxılmasını istədilər

**Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dərmanların qiymətindən şikayətlənib. "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı çıxış edən deputat bildirib ki, həm ölkəmizdə, həm də dünyada sonsuzluq problemi getdikcə artır.**

Deputat təklif edib ki, sonsuzluqdan əziyyət çəkən ailənin süni mayalanma ilə bağlı bir dəfə xərci icbari tibbi sığorta çərçivəsində qarşılansın: "Sonsuzluğun müalicəsində istifadə olunan dərmanların da qiymətləri olduqca yüksəkdir. Çox xahiş edirik ki, müvafiq qurumlar bu məsələyə baxsınlar. Hər bir ailə üçün övlad sahibi olmaq önəmli məsələdir. İnsanlar bilir ki, tibbin imkanları onlara kömək edə bilər, ancaq pulsuzluğa görə bundan istifadə edə bilmirlər. Biz bunu icbari tibbi sığorta çərçivəsində qarşılaya bilsək, nə qədər boşanmaların qarşısını ala bilərik. "Reproduktiv sağlamlıq haqqında" qanunun da artıq qəbul olunmasına çox ciddi ehtiyac var". Deputat orqan transplantasiyası ilə bağlı problemə də toxunub...

(səh.4)



# NATO Azərbaycanın bölgədəki nüfuzuna ciddi önəm verir

## Ukrayna münaqişəsinin tənzimlənməsində Bakının reseptləri Qərb siyasətinin həll paketində yer alacaq

**Fevralın 15-də NATO-nun baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevə zəng edib.** Söhbət zamanı baş katib ötən ilin dekabrında NATO-ya səfəri və Şimali Atlantika Şurasında çıxışına görə Prezidentə təşəkkürünü bildirib. Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub. Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb. Baş katib Avropanın etibarlı qaz təchizatçı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib.

(səh.2)

# Müdafiə Nazirliyi məlumatı yalanladı

## Azərbaycan ərazisində qanunsuz erməni silahlı yaralanmayıb



**Erməni mətbuatında yayılan guya Azərbaycan Ordusunun bölmələrinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində atəş açması nəticəsində qanunsuz erməni silahlı dəstə üzvünün ağır yaralanması barədə məlumat yalandır.**

"Şərq" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin (MN) məlumatında deyilir. "Erməni tərəfi qanunsuz birləşmənin üzvləri arasında baş verən cinayətləri ört basdır etmək üçün növbəti təxribata əl atıb", - məlumatda bildirilir.

# Agent axtarışdadır

## Arutyunyanın həbsi üçün şərait yetişib



**Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov Qarabağdakı baş separatçı Araik Arutyunyanın qısa müddətdə istintaqa təqdim ediləcəyini, məhkəmə qarşısına çıxarılacağını deyib.**

Prokurorluq rəsmisi bildirib ki, Vətən müharibəsi zamanı Gəncə şəhərinə 4 dəfə terror hücumu olub. Özünü qondarma qurumun "prezidenti" kimi təqdim edən Arutyunyan sosial şəbəkə hesabında bunu öz üzərinə götürüb: "Ümid edirik, qısa müddətdə cinayət törətmiş hər bir şəxsin, o cümlədən Araik Arutyunyanın və digərlərinin tutularaq istintaqa cəlb edilməsi təmin olunacaq". Məlumat üçün bildirək ki, separatçı Arutyunyan haqqında Baş Prokurorluqda cinayət işi açılıb.

(səh.4)



# Sahibə Qafarova deputatlardan konkret faktlar istədi

## "Yoxsa kiminsə "batinkası" cırılıb və ya ayrı məsələləri burada demək düzgün deyil"

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 11 məsələ olub.**

Deputatlar öncə cari məsələlərlə bağlı çıxış ediblər, təklif və iradlarını səsləndiriblər. Millət vəkili Fazil Mustafa Şuşa Bəyannaməsinin imzalandığı 15 iyun tarixinin Türkiyə və Azərbaycanın ortaq bayramı kimi qeyd olunmasını təklif edib.

Deputat bildirib ki, 15 iyun hər iki ölkədə Müttəfiqlik Günü kimi qeyd olunmalıdır. F.Mustafa Müdafiə Nazirliyində aparılan korrupsiya əməliyyatlarından da bəhs edib:

(səh.3)

# Havada barıt qoxusu var

## Qərb ölkələrinin əksəriyyəti Ukraynanı Rusiyanın ağuşuna atmaqdan məmnun kimi görünür

**Ukrayna Prezidenti Vladimir Zelenski ölkəni tərk edən Ali Radanın deputatlarını 24 saat ərzində geri qayıtmağa çağırıb. O, bu barədə prezident aparatının "Facebook" səhifəsində yayımlanan mətbuat konfransında bildirib.**

V.Zelenskinin sözlərinə görə, bəzi xalq deputatları artıq qohumlarını belə xaricə aparıb. Ukrayna lideri onlara ölkəyə qayıtmaq üçün 24 saat vaxt verib: "Düşünürəm ki, onlar qayıtmalıdırlar, əks halda biz hamımız dövlət, rəhbərlik olaraq ciddi nəticələr çıxarmalıyıq".



(səh.4)

# Sağalanların sayı yoluxanları keçdi

## Daha 4 687 nəfər koronavirusa yoluxub, 28 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 687 yeni yoluxma faktı qeydə alınıb, 6 506 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 752 605 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 696 565 nəfər müalicə olunaraq sağalıb, 9 105 nəfər vəfat edib, aktiv xəstə sayı 46 935 nəfərdir.

# Sumqayıtda qızını boğub öldürən ata saxlanıldı



**Sumqayıtda qızını boğub öldürən ata saxlanılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, fevralın 15-də Sumqayıt şəhər sakini 1984-cü il təvəllüdlü Zəminə Mehtiyevanın öldürülməsi faktı ilə bağlı Sumqayıt şəhər prokurorluğunda məlumat daxil olub. Aparılmış araşdırmalarla zərərçəkmişin atası Salam Cəfərovun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı Zəminə Mehtiyevanı elektrik naqillə boğaraq qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Salam Cəfərov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə istintaq davam edir.



# Rusiya hiss edir ki, idarəetməni itirir

## Ona görə də sərhəd mövzusunu daim gərgin vəziyyətdə saxlamaq üçüncü tərəfin marağındadır

(səh.3)

# Məlahət İbrahimqızı Fəzail İbrahimliyə sonuncu dəfə xəbərdarlıq etdi

## "Heç kəs sizə səlahiyyət verməyib ki, yetənə daş atasınız, yetməyənə də güllə atasınız"



(səh.2)

# NATO Azərbaycanın bölgədəki nüfuzuna ciddi önəm verir

## Ukrayna münaqişəsinin tənzimlənməsində Bakının reseptləri Qərb siyasətinin həll paketində yer alacaq



**Fevralın 15-də NATO-nun baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevə zəng edib. Söhbət zamanı baş katib ötən ilin dekabrında NATO-ya səfəri və Şimali Atlantika Şurasında çıxışına görə Prezidentə təşəkkürünü bildirib.**

Telefon danışığı əsnasında Azərbaycan-NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub. Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb. Baş katib Avropanın etibarlı qaz təchizatçı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü ifadə edib. Prezident İlham Əliyev Azərbaycanın enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırıb.

**Tərəflərin telefon danışığını şərh edən siyasi şərhçi Aqşin Kərimov deyib ki, dünyanın ən böyük hərbi-siyasi təşkilatının ofisindən Bakıya edilən zəngin təməli Ukrayna münaqişəsinin müharibə həddinə çatdığı dövrə təsadüf edir.** Analitik bildirib ki, bununla NATO Azərbaycan qazının Avropa bazarlarında şaxələndirilməsinin Qərb üçün hərbi-siyasi və iqtisadi üstünlük vəd edəcəyini bəyan edib: "Baş katib Rusiya-Ukrayna arasında Azərbaycanın vasitəçiliyinin əhəmiyyətli roluna diqqət çəkir. Bu işdə Azərbaycan-Türkiyə müştərək maraqlarına dəstək verir. Müzakirələrdə Cənubi Qafqazdakı yeni reallıq, Ukrayna ətrafında cərəyan edən proseslər danışıqlar predmetinə daxil olub. Azərbaycan enerji məhsulu növlərinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcək. Azərbaycana olan ehtiyac Bakı-İrəvan münasibətlərinin normallaşması prosesində Qərbin Ermənistanın qeyri-konstruktiv mövqeyinə qarşı cəbhədə effektiv fəaliyyətini şərtləndirir. Azərbaycan Ermənistanla müharibəni elə bir konfiqurasiya quraraq apardı ki, bu, Rusiyanın da maraqları ilə toqquşan hala gəlmədi. Azərbaycan dövlətinin Qərblə Rusiya arasında tarazlayıcı mövqedə durması Bakının önəmini artıran siyasət idi. Azərbaycanın Rusiya ilə münasibətlərini qoruyub saxlayır, bu, Qərb üçün bir təcrübədir. Ona görə də, NATO Ukrayna münaqişəsinin sülh yolu ilə həlli üçün ölkə rəhbəri İlham Əliyevin Moskva ilə münasibətlərdəki diplomatik-siyasi təcrübəsindən bəhrələnmək istəyir".

**A.Kərimov vurğulayıb ki, tərəflərin müzakirəsi son zamanlar Kremldən postsovet məkanına gələn təhdidlər fonunda da diqqət çəkir:** "Bakı ilə təmaslar davam etdiriləcək. Qərb Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində Bakının maraqlarına uyğun vasitəçilik səylərini gücləndirmək məcburiyyətində qalacaq. Ukrayna münaqişəsinin tənzimlənməsində Bakının reseptləri Qərb siyasətinin həll paketində yer alacaq".

**İsmayıl Qocayev**



# Frank-Valter Ştaynmayer yenidən Prezident seçilib

## İlham Əliyev Almaniyalı həmkarını bu münasibətlə təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Frank-Valter Ştaynmayerə təbrik məktubu göndərib.**

Təbrik məktubunda dövlətimizin başçısı Almaniya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Frank-Valter Ştaynmayeri ürəkdən təbrik edib.

"Biz bu il Azərbaycan ilə Almaniya arasında diplomatik əlaqələrin qurulmasının otuz illiyini qeyd edəcəyik. Bu dövr ərzində ikitərəfli səviyyədə nail olduğumuz siyasi dialoq, bir sıra sahələrdə formalaşmış qarşılıqlı faydalı əməkdaşlıq ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edir.

İnanıram ki, dövlətlərarası münasibətlərimiz və səmərəli əməkdaşlığımız istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir", - deyə Prezident İlham Əliyev qeyd edib.

Sonda dövlətimizin başçısı Almaniya Prezidentinə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətində uğurlar diləyib.

# Ərdoğan "Dubay Ekspo 2020"dəki Azərbaycan pavilyonu ilə tanış olub



**"Dubay Ekspo 2020" sərgisində Türkiyə Milli Gününün açılışında iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan pavilyonu ilə tanış olub.**

"Dubay Ekspo 2020"nin Azərbaycan üzrə baş komissarı, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov Türkiyə dövlətinin başçısına Azərbaycan pavilyonunun eksponatları haqqında ətraflı məlumat verib. Anar Ələkbərov qeyd edib ki, "Sabahın inkişafı bu gün verilən qərarlardan asılıdır" konsepsiyasını özündə əks etdirən milli pavilyondakı interaktiv elektron vasitələrdə Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, müasir incəsənəti və digər mövzularda videoçarxlar təqdim edilir. Diqqətə çatdırılıb ki, pavilyonda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı iqtisadi və sosial sahələrdə davamlı inkişaf və innovasiyalar, 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri haqqında məlumat verilir.

Prezident Rəcəb Tayyib Ərdoğan və onu müşayiət edən Türkiyənin daxili işlər naziri Süleyman Soylu, xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycan pavilyonunun eksponatları ilə tanış olublar.

"Qardaş Azərbaycanın "Dubay Ekspo"dakı təqdimatı iftixara səbəb oldu", - deyən Rəcəb Tayyib Ərdoğan Xalq artisti Alim Qasımov və Fərqanə Qasımovanın pavilyondakı canlı ifasından, "Sarı gəlin" mahnısından təsirləndiyini bildirib.

**Parlamentdə "Dini etiqad haqqında" qanuna dəyişikliklərin müzakirəsi zamanı deputat Məlahət İbrahimqızı ilə parlament sədrinin müavini Fəzail İbrahimli arasında mübahisə yaranıb.**

Deputat M.İbrahimqızı çıxışında bütövlükdə mollaları qara geyimdə görmək istəmədiyini





# Məlahət İbrahimqızı Fəzail İbrahimliyə sonuncu dəfə xəbərdarlıq etdi

## "Heç kəs sizə səlahiyyət verməyib ki, yetənə daş atasınız, yetməyənə də güllə atasınız"

deyib. Xatırladaq ki, parlamentin fevralın 1-də keçirilən iclasında deputat Məlahət İbrahimqızı qadın mollaların savadsızlığı və cəhalətlə bağlı məsələlərin qanunla tənzimlənməsini təklif etmişdi. Vitse-spiker Fəzail İbrahimli deputatın ötən iclasda qaldırdığı məsələyə münasibət bildirərkən deyib ki, yer üzündə cəhalətə qarşı qanunun qəbul olunduğu və ya orada cəhalətin kökünün kəsildiyi ölkə yoxdur. Daha sonra F.İbrahimli Cəlil Məmmədquluzadənin "Ölülər" pyesindən bir neçə sitat səsləndirib: "Yer üzündə elə ölkə var ki, orada cəhalətə qarşı qanun qəbul olunsun və orada cəhalətin kökü kəsilsin?! Cahillik cəmiyyətin məhsuludur. Biz özümüz ona yol açırıq. Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundzadə bütün ömrünü bu cahilliyə qarşı mübarizəyə həsr etdi".

**M.İbrahimqızı isə F.İbrahimliyə cavabında bildirib ki, bütün sahələrdə belə hallar var:** "Biz bu gün cəmiyyətdə gördüyümüz neqativləri deməliyik. Heç kəs də sizə səlahiyyət verməyib ki, yetənə daş atasınız, yetməyənə də güllə atasınız. Mən parlamentə dünən gəlməmişəm. Mənə 5 dəfə etimad göstərilib. İnsanlar nə etsin?! Mollanı dəvət edir. Fəzail müəllim, bu, sizə yaraşmaz. Siz məni nümunə çəkməməlisiniz. Sonuncu dəfə sizə bildirirəm".

**Fəzail İbrahimli öz növbəsində qeyd edib ki, Məlahət İbrahimqızının heysiyyatına toxunan nəsə deyibsə, üzr istəyir:** "Mən burada sizin sualınızı gündəmə gətirdim. Cəhalətlə bağlı fikirlərimi bölüşdüm. Mən çox mat qaldım. Onu deyim ki, siz bu ideyanı Hacı Salmandan alırsınız".

**İsmayıl Qocayev**



# "Ümid edirik ki"

## Putin: "Ukraynanın NATO-ya daxil olması ilə bağlı narahatlığımızı tərəfdaşlarımız ciddi qəbul edəcək"

**Ukraynanın NATO-ya daxil olmasının təxirə salınması heç nəyi dəyişmir, Rusiya bu məsələni yaxın vaxtlarda danışıqlar prosesinin gedişində həll etmək istəyir.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya Prezidenti Vladimir Putin Rusiya-Almaniya danışıqlarının yekunu ilə bağlı birgə mətbuat konfransında bildirib.

"Ukraynanın NATO-ya daxil olması məsələsi müzakirə olunur. Deyirlər, sizin dediyiniz kimi, bu, sabah olmayacaq. Bəs nə vaxt olacaq? Sabah yox, biri gün? Bəs bu, bizim üçün nəyi dəyişir? Tarixi perspektivdə qətiyyən heç nəyi. Biz Ukraynanın NATO-ya daxil olmağa hazır olmadığını eşidirik. Gəlin bu tezisi araşdıraq. Həm də deyirlər ki, Ukraynanı sabah qəbul etməyəcəklər. Buna hazır olanda qəbul edəcəklər? Bu bizim üçün artıq gec ola bilər. Ona görə də biz bu məsələni indi, yaxın vaxtlarda danışıqlar prosesinin gedişində sülh yolu ilə həll etmək istəyirik. Biz bundan çıxış edirik və çox ümid edirik ki, bizim narahatlıqlarımız eşidiləcək və tərəfdaşlarımız tərəfindən ciddi qəbul olunacaq"- deyə Putin vurğulayıb.

# AVRO-2022: Azərbaycan və Ermənistan eyni qrupa düşüb




**18 yaşadək oğlan basketbolçular arasında Avropa çempionatının püşkü atılıb.**

Apasport.az saytının məlumatına görə, C divizionunda mübarizə aparacaq yığmamız B qrupunda Ermənistan, Cəbəllütariq, Moldova və Lüksemburqa rəqib olub.

A qrupunda isə Monako, Malta, San-Marino, Albaniya və Andorra yer alıb. Turnir 2022-ci il iyulun 24-31-də baş tutacaq. örüşlər San-Marinonun Serravalle şəhərində təşkil olunacaq.

Kişi basketbolçular arasında kiçik ölkələrin Avropa çempionatının da püşkü atılıb. Yarışda 6 komanda iki qrupda çıxış edəcək.

Azərbaycan millisi A qrupunda Malta və Andorra ilə qarşılaşacaq. B qrupunda San-Marino, Cəbəllütariq və Ermənistan yer alıb. Yığmamız növbəti mərhələdə bu qrupun komandaları ilə görüşə bilər. Oyunlar gələn il iyunun 28-dən iyulun 3-dək Maltanın Ta-Qali şəhərində keçiriləcək.

# Türkiyə ordusu Suriyada 10 terrorçu zərərsizləşdirib



**Türkiyə Silah Qüvvələri Suriyanın şimalında keçirilən ayr-ayrı antiterror əməliyyatlarında 10 PKK silahlısını zərərsizləşdirib.**

Trend-in məlumatına görə, bu barədə ölkənin Milli Müdafiə Nazirliyi bildirib.

Qeyd olunur ki, "Fərat qalxanı" antiterror əməliyyatı bölgəsində hücum hazırlığında olan 4 terrorçu, "Sülh bulağı" antiterror əməliyyatı bölgəsində 6 terrorçu məhv edilib.

Nazirlik bölgədə əməliyyatların davam etdirildiyini deyib.

# Uşaq hüquqlarının müdafiəsi gücləndirilir

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətləri artırılıb



**Prezident İlham Əliyev Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında Fərman imzalayıb.**

Fərmanla 2022-ci il noyabrın 1-dən himayədar ailə sahəsində dövlət siyasətinin, tənzimləmənin və dövlət nəzarətinin, o cümlədən himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılması, valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə (bundan sonra - müəssisə) yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı qərarların qəbul edilməsi, sosial dəstək mexanizmlərinin tətbiqi vasitəsilə uşaqların müəssisələrdən ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi, eləcə də onların müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsi və müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanması sahəsində səlahiyyətlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- himayədar ailə institutunun inkişaf etdirilməsi və təşviqi ilə, habelə bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş digər məsələlərlə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini yeddi ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək;

- bu Fərmandan irəli gələn digər məsələləri həll edəcək.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

- bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, 2022-ci il noyabrın 1-dək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin təkmilləşdirilməsini təmin edəcək;

- bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görəcək.

Aidiyyəti dövlət orqanları (qurumları) bu Fərmandan irəli gələn məsələlərin həllinə zəruri kömək göstərəcəklər.




# Zəngəzur dəhlizi ilə Naxçıvana elektrik xətti çəkiləcək

**Zəngəzur dəhlizi ilə Naxçıvana 330 kV-luq elektrik xəttinin çəkilməsi gündəmdir.**

Bunu Trend-in suallarını cavablandırarkən Azərenerji Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Teymur Abdullayev deyib.

T.Abdullayev bildirib ki, Cəbrayıl rayonuna Ağcabədi və İmişlidən 330 kvtlıq xəttin çəkilməsi nəzərdə tutulur.

"Zəngəzur dəhlizi vasitəsiylə Avropaya enerji ixrac edilməsi nəzərdə tutulur. Ağcabədi 330 kV-luq yarımstansiyasının tikilməsi və bu xəttin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana çəkilməsi və həmin xətt vasitəsiylə elektrik enerjisinin Türkiyəyə ordan da Avropa bazarına ixrac edilməsi məsələsi nəzərdə tutulur", - deyə T.Abdullayev əlavə edib.

*Qeyd edək ki, bu gün ölkənin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələrinin Ağdam şəhərinə səfəri təşkil olunub. Jurnalistlər 2 gün öncə Prezident İlham Əliyevin açılışını etdiyi "Ağdam-1", "Ağdam-2" yarımstansiyalarına, "Qarabağ" rəqəmsal idarəetmə mərkəzinə, eləcə də Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki eyniadlı yarımstansiya ilə tanış olacaqlar.*

# Rusiya hiss edir ki, idarəetməni itirir

## Ona görə də sərhəd mövzusunu daim gərgin vəziyyətdə saxlamaq üçüncü tərəfin marağındadır

İsmayıl Qocayev



**Ermənistan tərəfi yenidən təxribata əl atıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunun Barmaqbinə yaşayış məntəqəsində yerləşən Azərbaycan Ordusunun mövqelərini heç bir səbəb olmadan fasilələrlə atıcı silahlardan atəşə tutub. Kəlbəcərlə yanaşı, Tovuz rayonunun Ağbulaq yaşayış məntəqəsi də atəşə məruz qalıb.**

Xatırladaq ki, Ermənistan silahlı qüvvələri son həftələrdə ardıcıl olaraq üç dəfə Kəlbəcər rayonu istiqamətində təxribata əl atıb, hətta bir hərbçimizi şəhid ediblər. Ekspertlər ermənilər tərəfindən atəşin pozulması hallarını bir sıra siyasi proseslərə bağlayırlar.

**Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Şərq"ə açıqlamasında deyib ki, münaqişə zonası Qarabağdan Azərbaycan-Ermənistan sərhədinə keçməkdədir. Politoloq bildirib ki, hər bir münaqişə xarici ölkələr üçün idarəetmə üslubudur:** "Hiss olunur ki, Qarabağda Rusiya tərəfindən gərginliyi saxlamaq cəhdi artıq alınmır. Ermənilər bölgəni tərk edirlər. Rusiya yaxşı başa düşür ki, oradakı prosesləri nəzarətdə saxlamaq və əvvəlki dönəmlərdə olduğu kimi həmin proseslər üzərindən Azərbaycanla Ermənistanı idarə etmək çətinləşir. Bəlkə də artıq qeyri-mümkündür. Ona görə də sərhəd mövzusunu daim gərgin vəziyyətdə saxlamaq üçüncü tərəfin marağındadır. Digər tərəfdən bu məsələ ermənilərin də strateji məqsədinə uyğundur. Ermənilər istəyirlər ki, bu və ya digər şəkildə Qarabağ layihəsini davam etdirsinlər. Amma başa düşürlər ki, ərazi iddiası siyasəti onlar üçün də təhlükə yarada bilər. Artıq bu təhlükəni Zəngəzur zonasında hiss edirlər. Məntiq çox sadədir. Əgər "ərazi bütövlüyümüzü tanımaq istəmirsinizsə, biz də tanımağa məcbur deyilik". Azərbaycan tərəfi istər-istəməz bu siyasətə əl atacaq. Bu təhlükənin qarşısını almaq üçün ermənilər qısa müddətdə sərhədlərin demarkasiyası və delimitasiyası prosesinin başlanmasını istəyirlər. Amma bunun öz istədikləri şəkildə baş verməsinə çalışırlar. Yəni ermənilərin mövqeyi ondan ibarətdir ki, Azərbaycan onların sovetlərin vaxtında olan sərhədlərini tanısın. Qarşılığında isə Azərbaycan sərhəddini Qarabağ istisna olmaqla, guya ki, tanımağa hazırdılar. Azərbaycan təbii ki, buna heç vaxt razı olmayacaq. Ermənilər bununla özlərini "sülh tərəfdarı" kimi göstərmək niyyətindədilər. Təbliğat qururlar ki, guya onlar demarkasiya və delimitasiya istəyir, amma Azərbaycan bunun müqabilində ermənilərin Qarabağdan imtinasını tələb edir. Əslində isə rəsmi Bakı deyir ki, "gəlin sərhədlərin demarkasiya və delimitasiya prosesini başlayaq, Qarabağ sonraya qalsın".

**T.Zülfüqarov vurğulayıb ki, Rusiyanın vasitəçiliyinin əsasında Türkiyə-Rusiya tandemi dayanır:** "Bu iki ölkə istəməz ki, Cənubi Qafqaz regionunda Qərb iştirak etsin. Amma problem ondadır ki, Ermənistan Türkiyəni vasitəçi kimi tanımaq istəmir. Ona görə də əsas vasitəçilik və görüş məkanları Rusiyaya ötürülür. Ehtiyac var ki, bu vəziyyəti balanslaşdıraq və Qərbin imkanlarından da istifadə edək. Rəsmi baxış və metod bundan ibarətdir".

**"Müharibədən sonra illərlə işğal altında saxladığı əraziləri itirən Ermənistan hazırda UNESCO-nun Qarabağa nümayəndə heyəti göndərməsini istəyir". Bunu "Şərq"ə açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik**



# İndidən UNESCO-ya bəyan etməliyik

## "Qarabağa gələcək heyət "ünvanlı monitorinq" deyil, geniş monitorinq həyata keçirməlidir"

**bildirib ki, bu məsələdə İrəvana Moskva da dəstək verir:**

"Rusiya Xarici İşlər Nazirliyinin mətbuat sözçüsü Mariya Zaxarova deyib ki, Moskva qısa zamanda UNESCO-nun Qarabağa heyət göndərməsinə tərəfdardır. İrəvanı anladıq. "Qarabağdakı erməni abidələrinin albanlaşdırılması" adı altında saxta ittihamlarına əsaslanaraq dəstək qazanmağa çalışır. Bəs Moskvanın marağı nədir? Bəlkə Moskva da İrəvanın saxta iddiasına şərikdir, bununla Azərbaycana qarşı əlavə təzyiq aləti əldə etmək istəyir?".

**E.Şahinoğlu vurğulayıb ki, torpaqlarımız işğal altında ikən UNESCO Qarabağda dağıdılan məscidlər, muzeylər və kitabxanalarla maraqlanmayıb:** "Ancaq ermənilərin və onların havadarlarının çağırışı ilə azad olunmuş ərazilərə təcili nümayəndə heyəti göndərməyə qərar verib. Birincisi, beynəlxalq təşkilatın Qarabağa göndəriləcək nümayəndə heyətinin necə formalaşacağı prosesini diqqətdə saxlamalıyıq. Şübhə etmirəm ki, erməni lobbisi həmin heyətə öz adamlarını salmağa çalışacaq. İkincisi, indidən UNESCO-ya bəyan etməliyik ki, Qarabağa gələcək heyət "ünvanlı monitorinq" deyil, geniş monitorinq həyata keçirməlidir. Əks halda nəticələr Azərbaycan tərəfindən tanınmayacaq".

**İsmayıl**



# Türkiyə regionda super gücə çevrilib

## Belə bir vəziyyətdə ABŞ NATO ölkəsi ilə əməkdaşlığa məcburdur

**ABŞ və Türkiyə Qafqazda və Şimali Afrikada birlikdə fəaliyyət göstərir, ABŞ bu münasibətlərin faydasını görür.**

Trend-in məlumatına görə, bunu ABŞ-ın Türkiyədəki səfiri Ceffri Fleyk "Anadolu" agentliyinə müsahibəsində deyib.

"ABŞ və Türkiyə olaraq yaxın münasibətlərimizin faydasını görürük. Təhlükəsizliyimiz güclənib. Türkiyə 70 ildir ki, NATO üzvüdür, ona görə də bu sahədə bir çox ortaq maraqlarımız mövcuddur", - deyə səfir bildirib.

Amerikalı səfir, həmçinin Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesini çox yaxşı hadisə adlandırıb.

"Biz bu prosesi məmnuniyyətlə qarşılayırıq. Birincisi, Rusiyada baş tutan, ikincisi isə Vyanada keçiriləcək xüsusi nümayəndələrin görüşü bizi sevindirir. İstanbulla Yerevan arasında birbaşa uçuşların başlaması da çox vacib addımdır", - səfir deyib.

ABŞ üçün Türkiyənin, ələlxüsus onun Cənubi Qafqazdakı varlığının önəmi nədən ibarətdir?

**Bu barədə "Şərq"ə danışan politoloq Əhəd Məmmədli qeyd etdi ki, Türkiyənin Cənubi Qafqazdakı mövcudluğu NATO-nun da orada olması deməkdir.**

"Son yüz ildə Türkiyənin regionda önəmi azalmışdı. Ancaq yenə də müəyyən dərəcədə təsir edirdi. Ərdoğan iqtidara gələndən sonra Türkiyə yenidən böyüməyə başladı və regionda super gücə çevrildi. Daha sonra dünyada da təsirini artırmağa başladı.

O, ABŞ üçün vacib tərəfdaşa çevrilib. Türk ordusu indiki zamanda NATO-ya lazımdır. Eyni şəkildə Türkiyə üçün də ABŞ önəmlidir. Ona görə də, belə bir tərəfdaşla istəməsə belə əməkdaşlıq etməyə məcburdur.

1918-ci ildən sonra ilk dəfə idi ki, Türkiyə Cənubi Qafqaza daxil oldu. Bu bölgə Rusiyanın arxa bağçası hesab olunur. Türkiyənin girməsi eyni zamanda NATO-nun da bu regiona nüfuz etməsi deməkdir.

Türkiyə ilə müttəfiq olduğu üçün Azərbaycanın da önəmi artır. Hər yerdə zəif istismar olunur, güclüyə isə hörmət edilir. Onunla hər kəs anlaşmaya getməyə çalışır. Hətta Amerika kimi bir dövlət belə".

**Sənan İsmayıl**

# Nazirlər telefonla danışıb

## Lavrov və Mirzoyan üçtərəfli bəyanatların icrasını müzakirə edib



**Rusiyanın xarici işlər naziri Sergey Lavrov və onun erməni həmkarı Ararat Mirzoyan arasında telefon danışığı olub.**

APA-nın Moskva müxbirinin Rusiya XİN-in saytına istinadən verdiyi xəbərə görə, telefon danışığı zamanı aktual ikitərəfli və regional məsələlər, o cümlədən Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası müzakirə edilib.

Eyni zamanda, KTMT çərçivəsində Ermənistanın sədrliyi nəzərə alınmaqla qarşılıqlı fəaliyyət məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Təhlükəsizlik zəmanətləri üzrə davam edən danışıqlarla bağlı ətraflı müzakirə olunub. Avro-Atlantik məkanda bərabər və bölünməz təhlükəsizlik prinsiplərinin ardıcıl surətdə qorunmasının vacibliyi vurğulanıb.

# Sahibə Qafarova deputatlardan konkret faktlar istədi

## "Yoxsa kiminsə "batinkası" cırılıb və ya ayrı məsələləri burada demək düzgün deyil"

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 11 məsələ olub. Deputatlar öncə cari məsələlərlə bağlı çıxış ediblər, təklif və iradlarını səsləndiriblər. Millət vəkili Fazil Mustafa Şuşa Bəyannaməsinin imzalandığı 15 iyun tarixinin Türkiyə və Azərbaycanın ortaq bayramı kimi qeyd olunmasını təklif edib.**



© Trend News Agency



Deputat bildirib ki, 15 iyun hər iki ölkədə Müttəfiqlik Günü kimi qeyd olunmalıdır. F.Mustafa Müdafiə Nazirliyində aparılan korrupsiya əməliyyatlarından da bəhs edib: "Nəzarətsiz müdafiə və təhlükəsizlik orqanlarının olması ölkənin gələcəyi üçün böyük təhlükələr yarada bilər. Müdafiə Nazirliyində aparılan son yoxlama da bunu göstərdi. 44 günlük müharibədə qazandığımız qələbəni Müdafiə Nazirliyində xımır-xımır yeyiblər. Bu, hələ alt qurumda həyata keçirilən yoxlama idi. Yuxarı qurumlarda bunun həcmi yəqin yüz milyonlarladır! Digər tərəfdən, "Tərtər işi" ilə bağlı bu gün baş verənləri götürək. Tərtər hadisələrində yüzlərlə insan faciə yaşayandan sonra bu gün işə yenidən baxılması nəyi dəyişəcək?! Bu, həmin insanların həyatını yenidən bərpa edə biləcəkmi? Yox! Ona görə də biz indidən bu məsələlər barədə düşünməliyik. Müdafiə və təhlükəsizlik qurumlarında parlament nəzarəti barədə düşünməliyik. Müdafiə Nazirliyində yeyilən pullarla Mədəniyyət Nazirliyində yeyilən pulları eyniləşdirmək olmaz. Bu, hansısa şəhidin, qazinin qanı bahasına yeyilən puldur. Biz onların qarşısında sabah cavab verə bilmək üçün məsuliyyət daşıyanları məhkəmə prosesinə cəlb etməliyik".

**"Sülhməramlıların təxribatlara seyrçi qalması ciddi narazılıq doğurur"**

**Millət vəkili Ceyhun Məmmədov qeyd edib ki, son günlər sülhməramlıların nəzarətindəki ərazilərdə separatçıların təxribatlarının davamlı xarakter aldığı müşahidə olunur:** "Tərtərin ərazisinin atəşə tutulması, Xocalıda aktiv tikintinin aparılması "Bakcell"-in əməkdaşının güllələnməsi, təxribatçı bəyanatlar, "Arsax" haqqında "qanun" hazırlanması bu fikri bir daha təsdiq edir. Sülhməramlıların prosesə seyrçi qalması, bir sıra halda dəstəkləməsi haqlı olaraq Azərbaycan cəmiyyətində ciddi narazılıq doğurur. Sülhməramlıların əsas missiyası bölgə xalqları arasında sülhü, qarşılıqlı etimadı, birgə yaşayışı təmin etməkdir. Təəssüf ki, sülhməramlılar bu məsələlərlə bağlı heç bir ciddi addımlar atmırlar. Əksinə, başları burada humanitar aksiyalara qarışıb. Ermənilər də bundan istifadə edərək, öz xəbis və məkrli niyyətlərini həyata keçirir, yeni təxribatlar törətməyə davam edirlər". Deputat vurğulayıb ki, bu təxribatlara mütləq son qoyulmalıdır: "Əgər belə təxribatlar davam etsə, bunun cavabı çox sərt və ağır olacaq. Azərbaycan bölgəyə davamlı sülhün gəlməsinə çalışır, bütün addımlar buna hesablanıb. Ermənistan konkret mövqe bildirməlidir. Sülh istəyirsə, Azərbaycan sülhə hazırdır. Yox, məqsəd müharibədirsə və Azərbaycanın səbrini sınağa çəkməkdirsə, bunun aqibəti ermənilər üçün yaxşı olmayacaq. Bu millətin həm də, deyəsən, unutqanlıq xəstəliyi var. Başlarına gələnləri çox tez unudurlar. Ermənilər Vətən müharibəsində başlarına gələnlərdən çox ciddi nəticələr çıxarmalıdırlar. Çıxarmasalar, "dəmir yumruq" yenidən işə düşəcək və bu dəfə zərbə daha ağır olacaq. Azərbaycan 44 günlük müharibədə bunu bütün dünyaya göstərdi".

**"Qarabağ yarasını tam həll edə bilməmişik"**

**Millət vəkili Razi Nurullayev Azərbaycanda "rəngli inqilab" senarilərindən danışıb. Deputat vurğulayıb ki, bu, dünyada işlənmiş metodologiyadır. Rəhbər gözdən salınanda, xalq küçələrə axışır:** "İstək isə budur. Xalq küçələrə axışsın, yıxıb-töksün və "rəngli inqilab" baş versin. Mən Milli Cəbhə Partiyasının sədriyəm, bu hökumətə, bu iqtidara az qala radikal müxalifətdəyəm. Amma Azərbaycan adlı dövlətimizə, azərbaycanlılara müxalifətçilik edə bilmərəm. Hazırda Prezidentə qarşı aparılan iyrənc kampaniyanı ölkəmiz və gələcəyimiz üçün ziyanlı hesab edirəm. Biz hələ Qarabağ yarasını tam həll edə bilməmişik, Xankəndidə erməni birləşmələri var, Ermənistanla sərhədlərimiz müəyyən edilməyib, Zəngəzur dəhlizi ilə bağlı işlər yekunlaşmayıb, Naxçıvana quru sərhədi əldə edə bilməmişik". Deputat qeyd edib ki, bu gün bizi rahatladan Şuşa Bəyannaməsinin imzalanmasına indiki Prezident nail olub: "İndiki Prezident də başlanan işləri daha rahat sona çatdırmaq imkanındadır, Qarabağa Böyük Qayıdış həyata keçirilmədən Zəfərimiz tam deyil. İndiki halda bunu həyata keçirə bilən və dünya güclərinin qarşısında dözümlə dayana bilən odur. Haqqı niyə deməyək ki?! Siyasi mübarizəmizi Konstitusiya çərçivəsində aparaq, məqsədlərimizə seçki yolu ilə nail olaq. Ölkəni 90-cı illərə sürükləməyək, qanlı inqilablarla ölkədə dəyişikliyə çalışmayaq. Bu, ölkəni məhv etmək, əzmək və nail olduqlarımızın üzərindən birdəfəlik xətt çəkməkdir".

**"Mümkündürsə, dəmiryolu ilə sərnişindaşımaya yenidən baxaq"**

**Millət vəkili Naqif Həmzəyev bildirib ki, rayonlara sərnişindaşımada hələ də avtobuslarla bağlı problemlər var:** "Rayonlara sərnişindaşımada hələ də köhnə avtobuslardan istifadə edilir. Bu avtobuslar yenilənməlidir. Ən böyük problem isə sürücülərə tibbi xidmətin göstərilməsi ilə bağlıdır. Bu, hələ də köhnə qayda ilə aparılır. Sürücülərə tibbi xidmətlərin göstərilməsi müasir standartlara uyğun olaraq həyata keçirilməlidir. Sürücülərin narkotik istifadə edib-etmədiyini müayinə etmirlər. Sadəcə, tibbi kağız verirlər. Mümkündürsə, dəmiryolu ilə sərnişindaşımaya yenidən baxaq. Bu məsələnin həllini tapması yaxşı olar".

Deputat sınaq imtahanlarının qiymətinin aşağı salınmasını da təklif edib: "Bu, valideynlər və şagirdlərin təklifidir. Sınaq imtahanlarının qiyməti bahadır".

**"Silahlı Qüvvələr üzərində parlament nəzarəti təmin olunmalıdır"**

**Deputat Qüdrət Həsənquliyev bildirib ki, Silahlı Qüvvələrin maddi-texniki təminatının daha yüksək səviyyədə təchiz edilməsi istənilir:** "Silahlı Qüvvələrə parlament nəzarəti olmalıdır. Silahlı Qüvvələr üzərində parlament nəzarəti təmin olunmalıdır. Bizdə hərbi qulluqçuların hüquqları barədə normalar yoxdur. Bu necə ola bilər? Konstitusion müddəaları heç olmasa bu qanuna daxil etməliyik. Çox təəssüf ki, bu gün Respublika Prokurorluğunda aparılan iş də onu göstərir ki, hərbçilərə Konstitusiyaya zidd tapşırıqlar, əmr və göstərişlər verilib, ayrı-ayrı şəxslər orta əsrlərə aid işgəncələrə məruz qalıb. Qanunun həcmi genişləndirilməli, qanunda hərbi qulluqçuların hüquqları da əksini tapmalıdır".

**Parlamentin komitə sədri Ziyafət Əsgərov isə bildirib ki, hərbi qulluqçuların statusu qanunda əksini tapıb:** "Burada hansısa fakt varsa, deyin. Biz deputatıq. Hansısa internet televiziyalarından eşitdiyinizi gəlib burada demək düz deyil. Bu ordudur. Burada bizim ordu ilə bağlı dediklərimizi düşmən də eşidir. Səsləndirdiyimiz fikirlərin arqumenti olmalıdır, faktı olmalıdır". Sədr Sahibə Qafarova isə qeyd edib ki, fakt varsa, rəsmi təqdim olunsun: "Kiminsə "batinkası" cırılıb və ya ayrı məsələləri ümumiləşdirib burada demək düzgün deyil".

**Azərbaycanda fevralın 1-dək yazılan cərimələrin silinməsi təklif olunur**

**Fevralın 1-dək tətbiq edilən bütün cərimələrin silinməsi təklif olunub. Bu təkliflə deputat Tahir Kərimli parlamentin dünən keçirilən plenar iclasında çıxış edib:** "Hökumət əməkhaqqını, pensiyanı az artıranda biz sual edirik ki, niyə bu qədər artırdınız? Onlar isə deyirlər dövlətin gücü buna çatır. Amma cərimələr 300-400 faiz artırılır. Onda niyə əhalinin ödəyəcəyi pul nəzərə alınmır? İnsanların da bu cərimələri ödəməyə gücü çatmır axı. Xahiş edirəm ki, fevralın 1-nə kimi olan bütün cərimələr silinsin".

**İsmayıl Qocayev**

# Agent axtarışdadır

## Arutyunyanın həbsi üçün şərait yetişib

**Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov Qarabağdakı baş separatçı Araik Arutyunyanın qısa müddətdə istintaqa təqdim ediləcəyini, məhkəmə qarşısına çıxarılacağını deyib.**

Prokurorluq rəsmisi bildirib ki, Vətən müharibəsi zamanı Gəncə şəhərinə 4 dəfə terror hücumu olub. Özünü qondarma qurumun "prezidenti" kimi təqdim edən Arutyunyan sosial şəbəkə hesabında bunu öz üzərinə götürüb: "Ümid edirik, qısa müddətdə cinayət törətmiş hər bir şəxsin, o cümlədən Araik Arutyunyanın və digərlərinin tutularaq istintaqa cəlb edilməsi təmin olunacaq". Məlumat üçün bildirək ki, separatçı Arutyunyan haqqında Baş Prokurorluqda cinayət işi açılıb. O, Azərbaycanda dinc əhaliyə qarşı terror törətməyə əmr verən şəxs olaraq müharibə cinayətləri törədib. Arutyunyanın həbsi üçün İnterpola məlumat verilib. Amma onun həbsini gerçəkləşdirmək hələ mümkün olmayıb.



"Baş separatçını məhkəmə qarşısına çıxarmaq üçün Rusiyanın da razılığını almalıyıq"

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Baş Prokurorluğun açıqlamasını müsbət qarşılasa da, hələlik separatçının həbsinin real olmadığını deyib.** Partiya rəsmisinə görə, Xankəndi və ətrafı Rusiya sülhməramlılarının nəzarətində olduğu müddətcə oradakı separatçıları zərərsizləşdirmək çətin olacaq: "Əgər Silahlı Qüvvələrimiz yaxın dönəmdə Qarabağda anti-terror əməliyyatına başlasa və həmin müddət ərzində Arutyunyan bölgədən qaçıb başqa ölkəyə sığınmasa, onu həbs edə bilərik. Fikrimcə, əsas məqsəd hansısa separatçının türməyə salınması deyil, Xankəndi və ətrafını nəzarətə götürməkdi. Arutyunyanı sonra da həbs etmək olar. Onu cinayət məsuliyyətinə cəlb etmək üçün Rusiya ilə müzakirələr aparılmalıdır. Daha doğrusu, hansısa məsələdə Moskvaya güzəştə getməliyik ki, onlar Arutyunyanı bizə təhvil versinlər. Rusiyaya Qarabağ ərazisində ən böyük güzəşti etmişik. Başqa hansı güzəştə gedə bilərik ki?! Bölgə rus "sülhməramlılarının" nəzarətində olduğu müddətcə atılacaq addımlar yarımçıq qalacaq. Arutyunyan gedəcək, yerinə başqa separatçı gələcək. Nəsə dəyişəcəkmi? Yox, dəyişiklik olmayacaq, çünki ərazilər rusların əlindədir. Qısa zamanda Qarabağın bütün ərazilərinə tam nəzarəti üzərimizə götürməli və sərhədlərin müəyyənləşməsinə nail olmalıyıq. Əlbəttə, separatçı Araikin Azərbaycanda məhkəmə qarşısına çıxarılması bir çox baxımdan önəmlidir. Bunu da təmin etməliyik. Amma indiki halda öncəlik torpaqlarımızda suverenliyimizi bərpa etməkdir".

**Politoloq Qabil Hüseynli də "Şərq"ə açıqlamasında prosesin mürəkkəb olduğunu vurğulayıb.** Ekspert bildirib ki, Arutyunyan qırmızı bülletenlə axtarışa verilsə də, sərbəst şəkildə Rusiyaya gedib-gəlir: "İnterpolun Moskva xidməti separatçıya əhəmiyyət vermir. Baş Prokurorluğun əlində kifayət qədər tutarlı faktlar var. Görünür, istintaq prosesi də xeyli irəliləyib. İnterpol xətti ilə müəyyən danışıqlar aparılır. Arutyunyanın həbsi üçün şərait yetişib. Amma çox çətin proses olacağını söyləmək lazımdır. O, Rusiya Müdafiə Nazirliyinin kəşfiyyat idarəsinin agentidir. O baxımdan həbsində müəyyən problemlərin yaradılacağını düşünürəm. Separatçının arxasında Fransadakı müəyyən erməni dairələrinin də olduğu deyilir".

**İsmayıl Qocayev**



# Bakı və Ankara 7 ay gözləyib qətiləşdirdi

## Azərbaycanın suverenliyinə qarşı təhdid olarsa Şuşa Bəyannaməsi işə düşəcək

**"Şuşa Bəyannaməsi suverenliyə qarşı təhdidləri aradan qaldırmaq üçün iki ölkənin bir-birinə tam dəstəyinə imkan verir".**

**Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Azərbaycan Qarabağda suverenliyinə qarşı təhdidi aradan qaldırmaq üçün hərəkətə keçəcəyi təqdirdə Türkiyə təkcə siyasi yox, hərbi baxımdan da prosesdə aktiv iştirak edə bilər:** "Bəyannamənin imzalanmasından 7 ay sonra təsdiq edilməsi Ukrayna üzərindən başlanan geosiyasi qarşıdurma fonunda diqqət çəkir. Bakı iki cəbhə arasında qalmaq perspektivini anlayaraq, seçimini öncədən rəsmiləşdirdi. Hərçənd, prosedur olaraq bəyannamənin bir il ərzində təsdiqlənməsi gözlənilən idi. Bakı və Ankaranın 7 ay gözləməsinin səbəbi başqa ola bilər. İstisna deyil ki, bəyannamədə hərbi istiqamətdə əməkdaşlıqla bağlı ictimaiyyətə açıqlanmayan məqamlar da olub. Bunun hərbi baza olması versiyası daha böyükdür. Ərdoğanın Şuşadan qayıtdıqdan sonra açıqladığı fikirlər tərəflərin bu məsələni Rusiya ilə razılaşdırmaq, eləcə də bəyannamənin üçüncü ölkəyə qarşı olmadığını izah etmək üzərində işlədiyini deməyə əsas verir. Sənəd rəsmiləşdi, lakin məsələnin razılaşdırılıb-razılaşdırılmadığı bəlli deyil".

**A.Nərimanlı vurğulayıb ki, sənədin rəsmiləşməsindən sonra Bakının Qarabağda ata biləcəyi addımlar maraqlıdır:** "Mümkündür ki, bir sıra istiqamətdə aktiv proseslərin şahidi ola bilərik. Qarabağdakı mövcud vəziyyət də bunu şərtləndirir. Hazırda separatçılar qondarma konstitusiya islahatlarına başlayıb və qondarma parlament və prezident seçkilərinə hazırlaşır. Qondarma seçkilər müharibədən sonra 2022-ci ilə qədər təxirə salınmışdı. Həmin vaxt bunun Bakının tələbi ilə olduğu haqda da məlumatlar var idi. Lakin mövcud proseslər separatçıların "seçki planını" icra etmək niyyətində olduğunu göstərir. Bunun baş tutması separatçı-terrorçu rejimin "müstəqilliyini" nümayiş etdirmək, həm də müharibədən sonrakı reallığa qarşı "əzələ göstərmək" deməkdir. Bu senarinin "rus müəllifin" qələmindən çıxması da Azərbaycanın suverenliyinə qarşı təhdid perspektivini artırır. Şuşa Bəyannaməsinin indi qüvvəyə minməsi hadisələrin inkişafını müəyyənləşdirməyə də hesablanmış ola bilər".

**İsmayıl**

# Deputatlar dərmanların qiymətindən şikayətlənib

## Səhiyyə Nazirliyindən, TƏBİB-dən məsələyə baxılmasını istədilər

**Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dərmanların qiymətindən şikayətlənib. "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı çıxış edən deputat bildirib ki, həm ölkəmizdə, həm də dünyada sonsuzluq problemi getdikcə artır.**

Deputat təklif edib ki, sonsuzluqdan əziyyət çəkən ailənin süni mayalanma ilə bağlı bir dəfə xərci icbari tibbi sığorta çərçivəsində qarşılansın: "Sonsuzluğun müalicəsində istifadə olunan dərmanların da qiymətləri olduqca yüksəkdir. Çox xahiş edirik ki, müvafiq qurumlar bu məsələyə baxsınlar. Hər bir ailə üçün övlad sahibi olmaq önəmli məsələdir. İnsanlar bilir ki, tibbin imkanları onlara kömək edə bilər, ancaq pulsuzluğa görə bundan istifadə edə bilmirlər. Biz bunu icbari tibbi sığorta çərçivəsində qarşılaya bilsək, nə qədər boşanmaların qarşısını ala bilərik. "Reproduktiv sağlamlıq haqqında" qanunun da artıq qəbul olunmasına çox ciddi ehtiyac var". Deputat orqan transplantasiyası ilə bağlı probleme də toxunub: "Qardaş Türkiyə bu mexanizmi çox gözəl qurub. Sabah orqan çatışmazlığından əziyyət çəkən bizim ailəmizin üzvü ola bilər. Mən səhiyyə qurumlarını qəbul edilən qanunun tətbiqini həyata keçirməyə çağırıram".

Q.Paşayeva dərmanların qiymətlərinin yüksək olması probleminə də toxunub: "Dərmanların əlçatan olması diqqətdə olmalıdır. Səhiyyə Nazirliyi, TƏBİB bu məsələni diqqətdə saxlasın. "Omikron" sürətlə yayılıb. Ən azından çox istifadə olunan vitaminlərin qiymətlərinə yenidən baxılsın".

### "Həkimlərin işə qəbul qaydası kökündən dəyişir"

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, həkim çatışmazlığı böyük problemdir.** İndi həkimlərin işə qəbul qaydası kökündən dəyişdirilir. Deputat bildirib ki, həkimlərin bölgələrdə işə qəbul edilməsi həmin bölgələrdəki tibb müəssisələrinin ixtiyarına veriləcək: "Bu da problemin həllinə kömək edəcək. Biz Səhiyyə Nazirliyi, TƏBİB və İTSDA ilə koronavirusla, icbari tibbi sığorta və bütövlükdə səhiyyə problemləri ilə bağlı dinləmələr keçiririk və keçirəcəyik".

### "Onkoloji xəstəliklərin müalicəsi böyük maliyyə tələb edir"



**Komitə sədri vurğulayıb ki, gələn ildən onkoloji xəstəliklər tibbi sığorta çərçivəsində qarşılanacaq:** "Gələcəkdə bütün tibbi xidmətlər icbari tibbi sığorta ilə əhatə olunmalıdır. Onkoloji xəstəliklərin müalicəsi çox böyük maliyyə tələb edir, ona görə icbari tibbi sığorta ilə qarşılana bilmir. İlkin mərhələdə onkoloji xəstəliklər çox maliyyə tələb etdiyi üçün Xidmətlər Zərfinə salınmadı. Amma növbəti ildən artıq onkoloji və oftolmoloji xəstəliklər də icbari tibbi sığorta çərçivəsində qarşılanacaq. Artıq TƏBİB və İTSDA ilə müzakirələr aparırıq. Əminəm ki, gələn ildən onkoloji xəstəliklərin müalicəsi tibbi sığorta çərçivəsində qarşılanacaq".

### "İcbari tibbi sığorta sistemi Azərbaycan üçün yenilikdir"

**Parlamentin Səhiyyə komitəsinin üzvü Soltan Məmmədov tibbi Xidmətlər Zərfinin genişləndirilməsini təklif edib:** "Tibbi xidmətlərin əlçatanlığının təmin olunması, eyni zamanda, əhatə dairəsinin genişləndirilməsi üçün bütün mümkün resurslardan istifadə olunmasına ehtiyac var. Bu, xüsusilə sosial həssas qruplardan olan vətəndaşların mənafeləri baxımından çox vacibdir. Çünki bəzi hallarda bu kateqoriyadan olan vətəndaşlar zərfə daxil olmayan tibbi xidmətlərdən istifadə etməkdə çətinliklə qarşılaşır. Bu səbəbdən ümid edirəm ki, əlavə maliyyə daxilolmaları zərfə daxil olan tibbi xidmətlərin sayının davamlı artırılmasına xidmət edəcək".

**Deputat vurğulayıb ki, icbari tibbi sığorta sistemi Azərbaycan üçün tamamilə yenilikdir:** "Bu baxımdan əhalinin daha çox maarifləndirilməsinə ehtiyac var. Təklif olunan tibbi xidmətlər barədə vətəndaşların heç də hamısı yetərincə məlumata malik olmur. Ona görə də hesab edirəm ki, həm kütləvi informasiya vasitələri, həm qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları bu prosesdə daha fəal iştirak edə bilər. Bu, həm ölkəmiz üçün, dövlətimiz üçün, həm də vətəndaşlarımız üçün çox vacib əhəmiyyət daşıyır".

**İsmayıl**




# Təkcə Müttəfiqlik Günü deyil...

## Türkiyə ilə ortaq bayramlarımız çox olmalıdır

**Milli Məclisdə Şuşa Bəyannaməsinin imzalandığı 15 iyun tarixi Türkiyə və Azərbaycanın ortaq bayramı kimi qeyd olunsun. Bu təklifi Milli Məclisin dünən keçirilən iclasında deputat Fazil Mustafa irəli sürüb:**

"15 iyun hər iki ölkədə Müttəfiqlik Günü kimi qeyd edilsin".

**AMEA-nın əməkdaşı, türkoloq-alim, politoloq Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, əlbəttə, 15 iyun 2021-ci ildə Azərbaycan və Türkiyə arasında Şuşada imzalanan bəyannamə çox mühüm əhəmiyyət kəsb edir:** "15 iyun Şuşa Bəyannaməsinin hər iki ölkənin parlamentində təsdiq edilməsi, dövlət başçılarının sənədi imzalaması, hüquqi qüvvəyə minməsi çox mühümdür. Bayram kimi qəbul edilməsi də mümkündür. Amma bayram əhval-ruhiyyəsinə qədər yüksəlməsi üçün hər iki dövlətin bununla bağlı yenidən addımlar atması vacibdir. İstək çox gözəldir. Yüksək qiymətləndirirəm".

Türkoloq-alim onu da əlavə edib ki, gələcəyə baxdıqda digər bayramlarımızın da ortaq şəkil alması bir ənənəyə çevrilməlidir: "Məsələn, necə ki, 21 mart Türkiyədə bir bayram günü kimi qəbul edilir. Bu gün 28 may, 23 aprel, 29 oktyabr kimi digər milli bayramlarda da ortaq abhavanın yaradılması daha məqbul olar. Türkiyə və Azərbaycan birliyinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq irəliyə addımlaması üçün məntiqlidir, mümkündür".

**Sücayət Mehti**

# Havada barıt qoxusu var

## Qərb ölkələrinin əksəriyyəti Ukraynanı Rusiyanın ağuşuna atmaqdan məmnun kimi görünür

**Ukrayna Prezidenti Vladimir Zelenski ölkəni tərk edən Ali Radanın deputatlarını 24 saat ərzində geri qayıtmağa çağırıb. O, bu barədə prezident aparatının "Facebook" səhifəsində yayımlanan mətbuat konfransında bildirib.**

V.Zelenskinin sözlərinə görə, bəzi xalq deputatları artıq qohumlarını belə xaricə aparıb. Ukrayna lideri onlara ölkəyə qayıtmaq üçün 24 saat vaxt verib: "Düşünürəm ki, onlar qayıtmalıdırlar, əks halda biz hamımız dövlət, rəhbərlik olaraq ciddi nəticələr çıxarmalıyıq".

**Siyasi şərhçi Aqşin Kərimov Ukraynadakı hazırkı vəziyyəti "Şərq"ə dəyərləndirib:** "Fevralın 14-də Rusiya Prezidenti Vladimir Putin Xarici işlər naziri Sergey Lavrov və Müdafiə naziri Sergey Şoyqunu qəbul etdi. Elə həmin gün Ukrayna Prezidenti Almaniya kansleri Olaf Şoltsla Kiyevdə görüşdü. Putinin baş diplomatla uzun masa arxasında əzələ nümayişi ilə müşayiət olunan müzakirələri görünür ki, Zelenskidə "müharibə başlayacaq" mövqeyini gücləndirdi. Eyni gündə Zelenski müharibə öncəsi atmosfer ovqatında çıxış edərək ictimai rəyi qanlı senariyə hazırlayan tezislər səsləndirdi. Beləliklə, fevralın 16-sı Ukrayna üçün milli birlik günü elan edildi".



*A.Kərimovun fikrincə, hazırda Ukrayna NATO və Rusiyanın ona uzanan caynaqları arasında qalaraq vəziyyətdən çıxış yolu tapmağa çalışır:* "Ancaq onun ritorikası Moskvanın hər keçən gün öz caynaqlarını itiləməyə rəvac verir. Qərb ölkələrinin əksəriyyəti isə Ukraynanı Rusiyanın ağuşuna atmaqdan məmnun kimi görünür və Britaniya istisna olmaqla rəsmi Kiyevin hərbi müdafiəsi üçün ən zəruri hərbi tədbirlərdən çəkinirlər. Bu situasiyanın tablosu Rusiyanı qürrələndirir və Moskva "əzələlərini şişirtməyə" davam edir".

**Analitik Putinin müdafiə naziri Şoyqu ilə görüşünə diqqət çəkib:** "Burda müdafiə naziri Rusiyanın keçirdiyi hərbi təlimlər haqqında məruzə edib, hərbi dairələrin donanmalarının dənizlərdə təlimlərinin yüksək səviyyədə olduğunu qeyd edib. Bu, Rusiyanın NATO-ya "biz dənizdəki strateji dərinliklərdə də güclüyük və sulardan istədiyimiz zərbələri endirə bilərik" mesajıdır, daha doğrusu, gövdə nümayişidir. Şoyqu ABŞ sualtı gəmisinin Rusiya ərazilərinə daxil olduğunu və müdaxilə ilə ərazilərdən çıxarıldığını xatırlatması belə deməyə əsas verir ki, əks qütbdə mövqelənən Rusiya və ABŞ bir-birinin sularına dalaraq çəkindirici amil yaratmaq niyyətlərini göstərirlər".

**Siyasi şərhçi ABŞ-ın gözlənilən Ukrayna-Rusiya müharibəsindəki hazırkı mövqeyinə toxunub:** "Hazırda Ağ Ev Ukraynanın "ağ günə" çıxmasını təmin edən akta çevrilə bilmir. Belə məqamda isə növbə yenə diplomatiyanındır. Rusiyanın hədələyici tondakı təhlükəsizlik zəmanətləri ilə bağlı sənədə ABŞ-ın cavabını iki hissəyə bölmək olar: Əvvəla o, rəsmi Moskvanın müəyyən etdiyi üç əsas probleme reaksiya ver(m)ir. Bu, NATO-nun genişlənməməsi, Rusiyanı təhdid edən silahların Avropada yerləşdirilməməsi və Avropadakı hərbi-texniki konfiqurasiyanın əvvəlki vəziyyətinə (1997-ci il tablosuna) qaytarılması ilə bağlıdır. Yəni ABŞ bu tələblərə dair öhdəlik götürməkdən boyun qaçırır. Bu isə Rusiyanı qane etmir. Daha sonra Kreml bildirir ki, hər bir dövlətin ittifaq seçmək hüququ öz təhlükəsizliyini başqa dövlətin hesabına gücləndirməmək öhdəliyi ilə məhdudlaşdırılmalıdır. Rusiya ABŞ-ın bu tezisə münasibətini nisbətən konstruktiv xarakterli hesab edir, çünki burada silahların məhdudlaşdırılmasına dair komponentlər də daxildir".

*A.Kərimovun qənaətincə, hazırda Rusiya-Ukrayna arasındakı müharibə qoxusu hissediləcək dərəcədə artsa da, Qərblə Rusiya arasında diplomatik təmaslar yenə də davam etdiriləcək.*

**Günəş Mərd**

# Gəncə şəhər bələdiyyəsi yaradılmalıdır

**Gəncə şəhərinin Nizami və Kəpəz rayonları ləğv olunur. Bu məsələ Milli Məclisin dünənki iclasında müzakirəyə çıxarılan "Gəncə şəhərinin inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsində əksini tapıb.**

Layihəyə əsasən, Kəpəz və Nizami rayonları ləğv edilərək Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrindən çıxarılır. Ləğv edilən Nizami rayonunun tərkibindəki inzibati ərazi dairələri müvafiq olaraq Gəncə şəhəri tərkibində hesab edilir. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Qanuna dəyişikliklə əlaqədar Gəncə şəhərində Nizami və Kəpəz bələdiyyələrinin əhatə etdiyi ərazi vahidləri də dəyişəcək. Lakin bələdiyyələr ləğv edilməyəcək.



## İnsanların məşğulluğunu təmin edə biləcək məsələlər hələ çözülməyib

### "Gəncənin rayonlarında məhkəmə və polis orqanlarının taleyi necə olacaq?"

Kəpəz seçki dairəsinin deputatı Müşfiq Cəfərov deyib ki, Gəncə şəhərinin inzibati ərazi bölgüsündə dəyişikliklər fonunda bir sıra suallar ortaya çıxır. O bildirib ki, Gəncənin Nizami və Kəpəz rayonlarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbələri, məhkəmə, polis orqanları və s. qurumların taleyinin necə olacağı maraqlıdır: "Aidiyyəti qurumları ixtisarlara getməməyə çağırıram. Çünki bu, Gəncədə işsizlik problemini aktuallaşdıra bilər".

### "Gəncə şəhər bələdiyyəsini yaratmalıyıq"

Deputat Fazil Mustafa isə deyib ki, bu, gecikmiş layihədir: "Bakıda da bu dəyişikliyə getməliyik. Layihəyə əsasən, biz Nizami və Kəpəz bələdiyyələrini saxlayırıq. Bunu da ləğv etməli, Gəncə şəhər bələdiyyəsini yaratmalıyıq. Bakı şəhərində də bu addımı atmalıyıq. Biz illərdir qurumların funksiyasını şəxslərə görə dəyişirik. Bələdiyyənin səlahiyyətini hansısa quruma verməklə vətəndaşın problemini həll edə bilmirik. İşsizlik məsələsinə baxmaq lazımdır. Müşfiq Cəfərovun fikirlərinə qatılıram. Gəncədə işsizlik yüksək səviyyədədir. Gəncədə metro tikilməlidir. İnsanların məşğulluğunu təmin edə biləcək məsələlər hələ çözülməyib. Bu layihələri bütün respublika üzrə hazırlamalıyıq. Qəsəbələr də şəhərlərə daxil edilməlidir. Bu qədər strukturun saxlanılmasına nə ehtiyac var? İdarəetmə sadələşdirilməlidir. Biz balaca rayon formatından çıxmalıyıq".

### "Gəncədə bələdiyyələri birləşdirsəydik, seçkilər keçirilməli idi"

Deputat Kamran Bayramov isə deyib ki, xüsusi nümayəndəlik institutunun tətbiqi üçün ilk növbədə inzibati idarəetmə məsələləri həll olunmalıdır.

O bildirib ki, respublikamızda çox kiçik rayonlar var: "Vaxtilə hansısa rayonun parçalanması nəticəsində əmələ gəlmiş rayonlar var. Bu problemlər həll edildikdən sonra idarəetmənin optimallaşdırılmasına başlanıla bilər. Digər layihədə bələdiyyələrin siyahısına dəyişiklik edilir. Bələdiyyələrin birləşməsi də məntiqli olardı. Amma biz Gəncə şəhərində Kəpəz və Nizami bələdiyyələrini birləşdirsəydik, yenidən seçkilər keçirilməli idi. Bizdə bələdiyyələrin birləşməsi prosesi 2009-cu ildə və 2014-cü ildə olub. Bələdiyyələrə yeni səlahiyyət verilməsi məsələsindən öncə bələdiyyələrin birləşməsi məsələsinə baxmalıyıq. Bundan sonra onların səlahiyyətləri artırılmalıdır. Bu gün Bakıda 12 inzibati rayon, 53 bələdiyyə var. Buna nə lüzum var?!".

**İsmayıl Qocayev**

# Vitse-spiker Şeyxin müdafiəsinə qalxdı

"Cəmiyyətdə bu qədər xidməti olan bir adamı niyə nəzir qutusu, molla təyinatı ilə əlaqələndirirlər?!"



**Milli Məclisdə "Dini etiqad azadlığı haqqında" qanuna təklif edilən dəyişikliklərin müzakirəsi zamanı maraqlı fikirlər səsləndirilib. Parlament sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli deyib ki, Şeyxülislam Allahşükür Paşazadə "Heydər Əliyev" ordeni ilə təltif edilib.**

**Şeyxin səlahiyyəti nəzir qutusu, molla təyinatı ilə bağlı deyil:** "Axı Prezident İlham Əliyev Şeyx həzrətlərini "Şərəf" ordeni ilə təltif edib. Cəmiyyətdə bu qədər xidməti olan bir adamı niyə nəzir qutusu, molla təyinatı ilə əlaqələndirirlər?! Mən Şeyx təəssübkeşi kimi danışmıram, amma mətbuatda yazılan xəbərlərə baxın. Qanunun məqsədi hansısa fərd, qurum deyil. Məqsəd Azərbaycanın Konstitusiyasına, tərəfdar çıxdığımız beynəlxalq müqavilələrə əsasən, qanunun müasir tələblərə uyğunlaşdırılmasıdır". Vitse-spiker cahil mollaların Azərbaycan cəmiyyətinə vurduğu ziyana da toxunub.

**Millət vəkili Qüdrət Həsənquliyev isə deyib ki, "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklik Konstitusiyaya ziddir. Onun sözlərinə görə, Konstitusiyanın 58-ci maddəsində vətəndaşların birləşmək hüququ var:** "Eynilə ictimai birlik anlayışı da qanunda var. Dəyişiklik etdiyimiz qanunun 5-ci maddəsində qeyd olunur ki, dövlət dini qurumların fəaliyyətinə qarışmır. Amma 8-ci maddəsinə biz dəyişiklik edirik. Bu, necə ictimai təşkilatdır ki, onun rəhbərini dövlət təyin edəcək? Bu cür açıqdan-açığa Konstitusiyaya zidd dəyişiklik etməklə, Konstitusiyaya zidd münasibəti ifadə etmiş oluruq. Bizim Konstitusiya və qanunlara olan münasibətimiz ölkəyə investisiya qoyuluşudur. İkincisi, doğrudan o ziyarətgahlarda o qədər pul yığılır ki, buna görə Konstitusiyanı pozmalı olaq? Deyirlər ki, din adamları özünü yaxşı aparmır, orada pozuntular olub. O qədər QHT rəhbərləri var ki, özünü yaxşı aparmır, dövlətin əleyhinə fəaliyyətlə məşğul olur. Onda nə edək?! Biz təklif edilən dəyişikliklərdə şəffaflığın təmin edilməsi üçün hansısa normanın qanuna daxil edildiyini görmürük, qanunda əl dəyişməsini görürük. Bu tipli qanunlara dəyişiklik etməyə, ölkədə din-dövlət münasibətlərinə xələl gətirməyə ehtiyac yoxdur. Parlamentin müvafiq komitəsi dini savadlanma sahəsində iş görməlidir".

**İsmayıl**



# Qadağa götürüldü

Azərbaycan daha 17 ölkədən uçuşlara icazə verdi

**Nazirlər Kabineti "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" qərara dəyişiklik edib.**

Bu barədə müvafiq sənədi Baş nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən, hava nəqliyyatı vasitəsilə aşağıdakı ölkələin vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə veriləcək:

- Albaniya Respublikası;
- Dominikan Respublikası;
- Filippin Respublikası;
- Gürcüstan;
- Hindistan;
- İndoneziya;
- İran İslam Respublikası;
- Kolumbiya Respublikası;
- Moldova Respublikası;
- Özbəkistan Respublikası;
- Pakistan İslam Respublikası;
- Peru Respublikası;
- Tacikistan Respublikası;
- Tailand Krallığı;
- Tunis Respublikası;
- Türkmənistan Respublikası;
- Venesuela Bolivar Respublikası.

# Ukrayna hər gün itirir

Zelenski müharibədən uzaqlaşmağa çalışır

**"Ukrayna müharibədən qaçmaq üçün NATO-ya üzv olmaq istəyindən əl çəkə bilər". Bu barədə Ukraynanın Böyük Britaniyadakı səfiri Vadim Pristayko deyib. Səfir bildirib ki, problemi həll etməyin ən yaxşı yolunu tapmağa çalışırlar: "Əgər ciddi güzəştlərə getmək lazım gəlsə, bunu edə bilərik".**






## Kiyev lazım gələrsə NATO-ya üzv olmaq niyyətindən də əl çəkəcək

Ukraynaya hücum olunacağı ehtimal olunan 16 fevral tarixini "Birlik Günü" elan edən prezident Vladimir Zelenski xalqa müraciət edib, Zelenski ölkədən qaçanları yenidən geri çağırıb və onlara 24 saat vaxt verib: "Ukrayna sülh üçün çalışır və bütün məsələləri danışıqlar yolu ilə həll etmək istəyir". Ukrayna prezidentinin müraciətindən Qərbə inanmadığı və təxribata getmək istəmədiyi bəlli olur.

Son aylar Amerika və digər NATO ölkələri Moskvanı Ukraynaya qarşı işğal hazırlamaqda ittiham edirlər. Rəsmi Moskva isə işğal barədə iddiaları rədd edir.

**Tərəflər arasındakı gərginliyi "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, NATO Ukraynanı üzv qəbul edə bilməz. Professor bildirib ki, qurumun nizamnaməsinə görə, ərazisində münaqişə olan hansısa dövlətin təşkilata daxil olması mümkün deyil:** "Zelenski vəziyyətdən çıxış yolu axtarır və yumşaldıcı açıqlamalar verməsi, sülhdən danışması normal və təbiidir. Amma diplomatlar bəzi məsələlərdə diqqətli olmalı, söylədikləri sözün məsuliyyətini dərk etməlidir. Əksəriyyət Rusiyanın 16 fevralda Ukraynaya "hücum edəcəyinə" inanmır. Çünki bu tarixi Moskva yox, ABŞ və İngiltərə müəyyənləşdirib. Əslində düşünülməmiş bəyanatlar ilk növbədə Ukrayna üçün problem yaradır. "Müharibə" bəyanatından sonra dövlət məmurları, hətta nazirlər belə ölkəni tərk etməyə başladı. Vəziyyət o qədər kritikləşdi ki, Zelenski məmurlara çağırış etməyə və onlara 24 saat vaxt verməyə məcbur qaldı. Ukrayna prezidenti əvvəllər bu məsələni ciddiyə almırdı. Amma Rusiyanın da öz maraqları, planları var. İndiki şəraitdə Kremlin hərbi təcavüzə əl atacağı inandırıcı deyil. Rusiya bütün dünyanı qarşısına almağa cəsarət etməz. Çin də Moskvanı meydanda tək buraxıb. Rusiyanın Ukraynaya hücum etməsinə əsas yoxdur. Luqansk və Donetskin bir hissəsi rusların nəzarətindədir. Bölgə əhalisinin 60 faizdən çoxu rusdur. O cümlədən Krım da ruslar tərəfindən ilhaq edilib. Bu qədər məsələyə səs çıxartmayan Ukraynanın indi Rusiya ilə savaşa başlayacağı inandırıcı deyil. Kiyevin ruslarla müharibəyə başlamaq ehtimalı çox zəifdir".

**İsmayıl Qocayev**

# Avtobusda qadının 2900 manatlıq telefonunu oğurlayan şəxslər tutulub

Əvvəllər məhkum olunmuş Cəlil Hacağayev və Ələddin İsrafilov saxlanılaraq istintaqa təhvil verilib

**Fevralın 4-də paytaxtın Yasamal rayonu ərazisində sərnişin avtobusunda vətəndaşa qarşı soyğunçuluq edilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, naməlum şəxslər avtobusda olan qadın sərnişinin əlindən dəyəri 2900 manat olan "İphone 12" markalı mobil telefonu soyğunçuluq yolu ilə alıb hadisə yerindən yayınıblar. Zərərçəkənin şikayəti əsasında Yasamal Rayon Polis İdarəsinin 26-cı Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində həmin hadisəni törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Cəlil Hacağayev və Ələddin İsrafilov saxlanılaraq istintaqa təhvil veriliblər.



Faktla bağlı 26-cı Polis Bölməsində toplanan materiallar Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib. Cəlil Hacağayev və Ələddin İsrafilov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Onların qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa ərazi polis orqanlarına, "102" Xidməti-Zəng Mərkəzinə və Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər.

**Sənan**

# Azərbaycanda yeni kartof sortu yetişdirildi

İxtira artıq şəhadətnamə alınma ərəfəsindədir



**Azərbaycanda daha bir yeni kartof sortu yetişdirilib.**

Bunu Trend-ə açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Elmar Allahverdiyev deyib.

O bildirib ki, yeni ixtira olunan kartof sortu artıq şəhadətnamə alınma ərəfəsindədir. "Yeni kartof sortu "Qələbə" sortu adlandırılıb. Kartof sortu Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin şərəfinə adlandırılıb. Bu sortun məhsuldarlığı əvvəlki kartof sortlarından yüksəkdir. Bununla yanaşı, "Qələbə" sortu, həmçinin digər kartof sortlarına nisbətdə ziyanvericilərə qarşı daha dözümlüdür. Kartof sortu yerli şəraitə tam uyğunlaşdırılıb. Yeni sort artıq təcrübə üçün əkilib və normal nəticə verib", - deyə direktor bildirib.

# Xərçəng xəstəsi olan uşaqların sayı açıqlanıb

Beyin sümükləri möhkəmlənmədiyindən törəmələr böyüsə də, əvvəlcə simptomsuz keçir

**"2021-ci ildə Milli Onkologiya Mərkəzində Uşaq Onkoloji Klinikasında 170 uşaqda onkoloji xəstəlik aşkar olunub və hamısı müvafiq protokollar əsasında müalicə alıb".**

Sputnik Azərbaycan-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin Uşaq Onkoloji Klinikasının şöbə müdiri Reyman İsmayılzadə deyib. O bildirib ki, uşaqların və böyüklərin onkologiyası bir-birindən əsaslı surətdə fərqlənir və uşaqlarda olan onkoloji xəstəliklər bütün bədxassəli şişlərin təqribən 1-1.5%-ni təşkil edir:



"Uşaqlarda onkologiyanın əsas hissəsini embrional şişlər əhatə edir. Bunların içində leykemiyalar (28%), mərkəzi sinir sisteminin şişləri (18-20%) və limfomalara (12-14%) daha çox rast gəlinir. Digər bədxasssəli şişlər, məsələn, nefroblastoma, neyroblastoma, rabdomiosarkoma isə hər biri ayrılıqda 6-7%-dir. Böyüklərdə təsadüf edən xərçəng xəstəlikləri (mədə-bağırsaq, ağciyər, süd vəzi xərçəngi və.s) uşaqlarda çox nadir hallarda rast gəlinir. Müasir müalicə metodları daha yaxşı nəticə verir və uşaqların böyük əksəriyyətində tam sağalma mümkündür. Valideynlərin qeyri-sağlam həyat tərzi, onların hormonal preparatlar qəbul etməsi, düzgün olmayan qidalanması uşaqlarda törəmələrin əmələ gəlməsinə təsir göstərə bilər. Bəzən uşaqlarda ana bətnində olarkən şişlər yaranır. Bunu ultrasəs müayinəsi zamanı görmək mümkündür.

Bəzi onkoloji xəstəliklər ana bətnində olsa da körpə dünyaya gələndən sonra öz-özünə spontan olaraq reqressiya edə, yəni geriyə inkişaf edə bilər. Ana bətnində uşağa diaqnoz qoyulursa, yalnız körpə doğulandan sonra tədbirlər görülür, yəni ana bətnində şişlər götürülmür. Körpə doğulan kimi müayinə olunur, kimya terapiya və cərrahi müalicə tətbiq olunur. Lakin şüa terapiya tətbiq edilmir".

**Həkim qeyd edib ki, leykoz sümük iliyinin xəstəliyidir. Bu zaman sümük iliyində blast transformasiyası olur, trombositlərin və eritrositlərin sayı düşür, leykositlərin sayı kəskin artır:**

"Onların 80 faizi limfoblast leykoz, 15-20 faizi isə mioblast leykozdur. Leykoz zamanı dəri solğunluğu, qanaxmaya meyillilik, dəridə petexiyalar, göyərmələr, damaqlardan, burundan səbəbsiz qanaxma, iki həftədən çox davam edən səbəbsiz yüksək hərarət, təkrar və ya davamlı infeksiyalar, halsızlıq, iştahasızlıq və çəki itkisi, sümüklərdə, oynaqlarda ağrı hissi, axsama, limfoadenopatiya, nevroloji simptomlar, hepatosplenomeqaliya və s. müşahidə olunur. Bu zaman qanın ümumi analizi və sümük iliyinin punksiyasının təhlilindən sonra dəqiq diaqnoz qoymaq mümkündür. Leykoz sağalan xəstəlikdir. Limfoblast leykozu 80-90 faiz halda müalicə etmək olar. Mərkəzi sinir sistemi şişlərindən olan beyin şişləri baş ağrıları, başgicəllənmə, səndələmə, səbəbsiz qusma, ikigörmə simptomları ilə xarakterizə olunur. Uşaqlarda beyin sümükləri möhkəmlənmədiyindən törəmələr böyüsə də, əvvəlcə simptomsuz keçir. Yalnız kəllədaxili təzyiq yuxarı olduqdan sonra əlamətlər özünü büruzə verir", - deyə həkim vurğulayıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# Qarabağda iqtisadi canlanma başlayacaq

## Sahibkarlar azad edilmiş rayonlarımıza lazımi investisiya qoyacaqlar



**Dədə Qorquddan günümüzədək qorunub saxlanmış hikmətli kəlam var: torpağı qoruya bilmədinsə, əkib becərməyə dəyməz, torpağı əkib-becərmədinsə, qorumağa dəyməz. Azərbaycan xalqı torpağını qoruya bildiyini də, əkib-becərdiyini də tarix boyu sübut etdi. Torpağa Ana Torpaq dedi, müqəddəs bildi. Müqəddəslik yolunda canından keçdi, şəhid oldu.**

Tarixin müəyyən dönəmində xarici havadarlarının köməyi ilə torpağımıza göz dikən mənfur erməni separatçılarını, xalqımız, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində məğlub etdi, torpağımızın müqəddəsliyini, saflığını özünə qaytardı. Və indi cənab Prezident yenə çağırış etdi. Bu dəfə torpağa iqtisadi baxımdan sahib çıxmağa çağırdı. İşğaldan azad edilmiş Ağdama növbəti səfəri zamanı cənab Prezident sahibkarlara səsləndi: ”Azərbaycan iş adamlarına bu gün burada - Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar”.

Prezident Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradıldığını vurğuladı: ”Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik”.

Prezident bildirdi ki, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq, özəl sektorun nümayəndələri də bu işlərdə fəal olmalıdırlar. Prezidentin çağırışına yalnız işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi baxımından yanaşmaq yanlış olardı. Məlumdur ki, ölkə iqtisadiyyatının inkişafı ümumilikdə sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edir. Hər hansı bölgənin inkişafı digər regionların inkişafına da təkan verir. Çünki iqtisadiyyat çoxşaxəli, nəhəng bir sahədir. Məsələn, Füzulidə əgər pambıq becəriləcəksə, emal müəssisələri, yüngül sənaye də inkişaf edəcək. Yaxud, işğaldan öncə taxılçılıq rayonu kimi tanınan bölgədə yenidən taxılçılığın inkişafı, qida sənayesinin inkişafına təkan verəcək. Yeni iş yerləri açılacaq, əhalinin gəlirləri artacaq, işsizlik faizi nəzərəçarpacaq dərəcədə aşağı düşəcək, əhalinin məşğulluğu artacaq. Bu baxımdan sahibkarların işğaldan azad edilmiş ərazilərə sərmayə qoyması ümumilikdə regionların sosial-iqtisadi inkişafını sürətləndirəcək. Ağcabədiyə səfəri zamanı ölkə başçısı ”Ağcabədi taxıl Aqropark”da yaradılan şəraitlə tanış oldu. Adıçəkilən park müasir əkinçilik və bağçılıq təsərrüfatına aid layihədir - ümumi sahəsi 3 min hektardır və ərazinin 850 hektarı dövlət ehtiyat fonduna daxildir. Aqroparkın faktiki əkin sahəsi 1368 hektardır. Burada əsasən arpa, buğda, qarğıdalı, pambıq, günəbaxan və sair bitkilər becərilir. Ümumi dəyəri 35 milyon manat olan ”Ağcabədi taxıl Aqropark”ın yaradılmasına 9,8 milyon manat məbləğində güzəştli kredit verilib ki, nəticədə 41-i daimi olmaqla 150 iş yeri yaranıb.

**İqtisadçı Pərviz Heydərov da hesab edir ki, sahibkarlar cənab Prezidentin çağırışına mütləq səs verəcəklər:**

### Buna real şərait, zəmin və müvafiq çağırış da var

- Bölgəyə maraq və investisiya istəyi az deyil. Buna real şərait, zəmin və müvafiq çağırış da var. Sadəcə, müəyyən tərəddüdlər mövcuddur ki, bu da təbiidir. Birincisi, sahibkarlarımızın çoxunda qısamüddətli qazanc istəyi güclüdür, ikincisi, sözügedən bölgənin və ya iqtisadi rayonların potensialına dair ətraflı və çevik bilgi səviyyəsi qənaətbəxş həddə deyil, üçüncüsü, gizlində təhlükəsizliyə zəmanət istəyi mövcuddur, dördüncüsü isə qeyd olunan bölgədə biznes və sahibkarlıq fəaliyyəti üçün ola bilsin əlavə güzəştlər gözlənilir. Sadalananların sayını artıra da bilərəm. Ancaq əbəsdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının potensialı müəyyən amillər baxımından digər rayonlarda yoxdur. Həm təbii resurslar baxımından, həm müharibə bitdikdən bəri Prezident İ.Əliyevin rəhbərliyi altında dövlətin və hökumətin bu ərazidə gördüyü işlər nəticəsində yaranan və hələ yaradılacaq şərait, həm bölgənin ölkəmizin coğrafi nöqteyi-nəzərindən çox mühüm yerində yerləşməsi və kənar ölkələrin bazarlarına çıxmaq şanslarının geniş olması sarıdan və sair... Təhlükəsizliyə zəmanətə gəldikdə, bir fakta diqqət çəkmək kifayətdir. Dövlət başçısı hər dəfə bölgənin bu və ya digər rayonlarına səfəri zamanı müxtəlif infrastruktur layihələrin açılışına və yaxud da tikintisinə start verilməsi ilə bağlı tədbirlərdə iştirak etməklə yanaşı, Silahlı Qüvvələrin ayrı-ayrı qoşun növlərinə dair ən müasir təchizata malik hərbi hissələrin də fəaliyyətə başlamasına dair mərasimlərə qatılır, bununla da nəzərdə tutulan bütün iqtisadi perspektivləri heç bir hərbi-siyasi təhlükə gözləmədiyini nümayiş etdirir. Sahibkarlar üçün işğaldan azad olunmuş ərazilərdə tikinti, turizm, istehsal, kənd təsərrüfatı məhsulları tədarükü, eyni zamanda emalı, həmçinin ticarət və müxtəlif növ xidmət sahələrində biznes qurmaq və fəaliyyət göstərmək imkanları var. Odur ki, yaxın gələcəkdə sahibkarların Qarabağ və onun ətraf zonasına sərmayə qoyuluşlarının şahidi olacağıq.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Müəllimi təhqir edən məktəb direktoru işdən çıxarılıb



**Kəlbəcər rayon 111 nömrəli tam orta məktəbin direktoru Vəfa Əmiraslanova tutduğu vəzifədən azad olunub.**

APA-nın yerli bürosunun əldə etdiyi məlumata görə, sosial şəbəkələrdə yayılan məlum videogörüntü ilə bağlı məsələ araşdırılıb və Təhsil Nazirliyinin müvafiq əmri ilə məktəbin direktoru Əmiraslanova Vəfa Əmiraslan qızı tutduğu vəzifədən azad edilib.

*Qeyd edək ki, bir qədər əvvəl Göygöl rayonunda yerləşən Kəlbəcər rayon 111 saylı tam orta məktəbdə məktəb direktoru ilə müəllim arasında baş verən mübahisə ilə bağlı videogörüntülər yayılıb. Video orta məktəbin ibtidai sinif müəllimi İslam Əliyev tərəfindən çəkilib. Görüntülərdə məktəbin direktoru Vəfa Əmiraslanova adıçəkilən müəllimi təhqir edib. Yayılan videoya münasibət bildirən direktor isə deyib ki, görüntülər məqsədli şəkildə çəkilib və montaj olunduqdan sonra yayılıb.*

# "Buster" doza vurdurmayan tələbələr universitetə buraxılmayacaq

## “2-ci dozanın vaxtı bitənlərə tövsiyə olunur ki, 3-cü doza vaksini vursunlar”



**Bütün elm və təhsil müəssisələri işçiləri və tələbələr üçün peyvənd sertifikatına dair yeni tələb qüvvəyə minib.**

Nazirlər Kabinetinin qərarına əsasən, peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin ”Peyvənd sertifikatı” fevralın 15-dən etibarlı hesab edilməyəcək.

Trend ”buster” doza olmayan tələbələrin tədris prosesində iştirak edib-etməməsi ilə bağlı universitetlərə sorğu ünvanlayıb.

**Azərbaycan Texniki Universitetinin (AZTU)** mətbuat katibi Sevinc İsgəndərova Trend-in sualını cavablayarkən qeyd edib ki, qərar ali təhsil müəssisələrinə də şamil olunur:

”Belə ki, bu gündən yaşı 18-dən yuxarı olan, COVID-19 vaksininin 2-ci dozasının üzərindən 6 aydan çox vaxt keçən və 3-cü doza vaksin olunmayan şəxslərin universitetə girişinə məhdudiyyət qoyulub. Bu barədə müəllim, tələbə və əməkdaşlara əvvəlcədən məlumat verilib”, - deyə o əlavə edib.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU)** mətbuat katibi Cavid Hüseynov qeyd edib ki, Nazirlər kabinetinin müvafiq qərarına uyğun olaraq vaksin pasportu etibarsız olan tələbə və müəllimlər iştirakına məhdudiyət var.

”Tədris sabahdan bərpa olunacaq və bütün kollektivə qərar çıxan gündən məlumat verilib. Universitetə buraxılış yalnız etibarlı vaksin pasportu, əks göstəriş və ya immunitet pasportu ilə mümkündür”, - deyə o bildirib.

**Azərbaycan Dillər Universitetinin (ADU) mətbuat xidmətinin rəhbəri Cavid Zeynallının verdiyi məlumata görə, 3-cü doza vaksinin vurulması tələbələrə tövsiyə xarakteri daşıyır:**

”2-ci dozanın vaxtı bitənlərə tövsiyə olunur ki, 3-cü doza vaksini vursunlar”, - deyə o əlavə edib.

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AZMİU)** mətbuat katibi Nəcibə Mirzəyeva bildirib ki, hazırda 2 doza vaksinin olmasına nəzarət edirik. 3-cü doza ilə bağlı isə hər hansı bir göstəriş verilməyib.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)** mətbuat katibi Elnarə Məmmədovanın sözlərinə görə, peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin ”Peyvənd sertifikatı” fevralın 15-dən qüvvədən düşdüyü üçün həmin şəxslərin universitetə daxil olmasına məhdudiyyətlər qoyulacaq.

”3-cü doza vurdurmayanlar üçün həftəsonuna qədər möhlət veriləcək. Lakin gələn həftədən qaydalara uyğun olaraq əks-göstəriş sertifikatı və ya peyvənd sertifikatı olmayanlar universitetə buraxılmayacaq”, - deyə o qeyd edib.

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU)** İctimaiyyətlə əlaqələr və marketinq departamentinin direktoru Bəhruz Nəzərov isə bildirib ki, fevralın 15-dən COVID-19 vaksininin 2-ci dozasının üzərindən 6 aydan çox vaxt keçən şəxslərin ”Peyvənd sertifikatı” etibarlı hesab edilməyəcək.

# "Daha Qarabağda qış olmayacaq!"

## *Fuad Biləsuvarlının yaradıcılığı barədə mülahizələrim*



**İstedadlı gənc şair, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezident mükafatçısı Fuad Biləsuvarlı daha çox incə, kövrək məhəbbət şeirləri ilə tanınır. Ərsəyə gətirdiyi oxunaqlı, diləyatımlı nəzm nümunələri tez bir zamanda diqqəti cəlb edib, bəstəkarlar bu şeirlərə mahnılar bəstələyiblər.**

Bu gün radio dalğalarında, televiziya ekranlarında tanınmış sənətkarların - Brilliant Dadaşaova, Gülüstan Əliyeva, Ağadadaş Ağayev, Almaz Ələsgərli və başqalarının ifasında dinlədiyimiz neçə sevilən mahnının sözləri bu nəğməkar şairə məxsusdur.

Fuadın poetik əhval-ruhiyyəsinin inikası olan neçə-neçə şeiri həm də Vətən sevgisindən boylanır. Bu poeziyada bəzən tünd rənglər, uzun illər qəlbimizə hakim kəsilən, taleyimizə həkk olunan ağrılı mövzular da nəzərə çarpır. İllər öncə, Birinci Qarabağ savaşından sonra artmış dərdlərimiz kimi:

**Bu həsrət də bir anlıq,**
**Bitər, bacım, bitər, döz.**
**Qəribanlıq, tənhalıq,**
**Ötər, bacım, ötər, döz.**
**Geri dönər itənin,**
**Toya dönər matəmin.**
**Sonu çatar sitəmin,**
**Gedər, bacım, gedər, döz**

Şair ”Yetər bacım, yetər döz” adlı bu şeirini şəhidlərimizin, itkin düşən soydaşlarımızın analarına, bacılarına, həyat yoldaşlarına, könül verdikləri nakam sevgililərinə bir təsəllitək qələmə alıb. Bu poetik nümunədə ana-bacılarımızın, müharibədə daha çox əziyyət çəkən zəriflərin qurumayan göz yaşı, dərdi-ələmi, nisgili var:

**Yaza dönər soyuq qış,**
**Ötüb keçər qar-yağış.**
**O həsrətli bir baxış,**
**İtər, bacım, itər, döz.**

F.Biləsuvarlının şeirləri özünəməxsus dəst-xətti, mövzu axtarışları, bir-birini təkrar etməyən emosional çalarları, nikbin notlara köklənməsi, yorucu olmayan dili ilə fərqlidir. Göründüyü kimi, bu poetik nümunələrin canını el-obaya məhəbbət, işğal altında olan yurd yerlərimizin tezliklə əsarətdən qurtulması arzusu təşkil edir. Həmin şeirlərdə qisas yanğısı, azğın düşmənə nifrət hissi də güclüdür.

Ölümlərin alisi şəhidlikdir, hər kəsə nəsib olmayan şəhidlik! Müəllif şir ürəkli oğullarımızın haqq savaşımızda ölümün gözünə dik baxaraq gavurlara divan tutduğunu, köksünü güllələrə sipər edib odlu cəbhələrdən dönmədiyini dilə gətirir. Onun ”Şəhidlər” şeiri son nəfəsdə ”Təki Vətən yaşasın!” deyərək əbədiyyətə qovuşan igidlərə ithaf olunub. Vətən, yurd naminə canından keçən və bu qəhrəmanlığı ilə şəhadətə yüksələn oğulların şərəfinə yazılıb bu misralar:

**Vətənə sevgisi hey aşıb-daşan,**
**Hayqırıb döyüşdə Nəbitək coşan,**
**Şəhidlik zirvəsin əzmlə aşan,**
**Hər qəlbdə abidə qurdu şəhidlər!**

Şairin Mübarizlər, Poladlar yetirmiş yurdumuzun düşmənə qan udduran, haqsızın bağrını dələn, işğalçıya yerini göstərən oğullarıyla fəxr etdiyini vurğulayan ”Biz qorxmuruq Vətən üçün ölməkdən” adlı şeirində oxuyuruq:

**Mübarizik, Poladlarıq, ərənik,**
**El yolunda canı qurban verənik.**
**Ölümləri gözümüzlə görənik,**
**Biz qorxmuruq Vətən üçün ölməkdən!**

Otuz ildən bəri yaramaz, xəbis xislətini göstərən, qətllər, təxribatlar törədən Ermənistan silahlı qüvvələrinə qarşı Vətən müharibəmiz başlayanda Fuadın da yaradıcılığında qəhrəmanlıq motivləri bütün mövzuları üstələyib. O, yağıdan öc alan Azərbaycan əsgərinin hünərinə həsr etdiyi şeirlərində müzəffər ordumuzun şücaətini poetik lövhələrlə tərənnüm edib.

Zəfərlə bitən 44 günlük müharibəmiz xalqımızın öz müdrik sərkərdəsi, rəşadətli ordusu ilə vəhdətinin, həmrəyliyinin canlı nümunəsi idi. Qəhrəman oğullarımız dünya hərb tarixinə yeni, parlaq səhifə yazmışdı. İşğalçı ordu darmadağın edilərək, zəbt etdiyi yurd yerlərimizdən qovulmuş, Qarabağ, Şuşa həsrətimizə son qoyulmuşdu:

**İçimizdə bahar, içimizdə yay,**
**Daha Qarabağda qış olmayacaq...**
**Yallı gedəcəyik Cıdır düzündə,**
**Daha Qarabağda qış olmayacaq!**
**Ay Fuad, ömürlük köç Qarabağa...**
**Üzünü, gözünü sürt o torpağa,**
**Daha Qarabağda qış olmayacaq!**

Müharibə poeziyamız Birinci Qarabağ savaşı zamanı dərd-ələmə köklənmişdisə, 44 günlük Vətən müharibəsi dövründə qələmə alınmış şeirlərdə Zəfər duyğusu və əzmi hər şeyin fövqündə idi. Hamının Qarabağ cəbhələrindən gələn xəbərlərə həyəcanla diqqət kəsildiyi, Qalibiyyət savaşımızın səsi-sorağı dünyaya yayılan günlərdə şair ”Bir gedərik Şuşaya!” şeirini yazmışdı:

**Gözlədiyim an gəldi,**
**Zülmətimə dan gəldi.**
**Ən bəxtəvər gün gəldi,**
**Yol açıqdı o taya,**
**Bir gedərik Şuşaya.**
**Rəhbər, ordum, afərin,**
**Dadın bildik Zəfərin.**
**Şuşayadı səfərim,**
**Yar, sənlə gələn yaya,**
**Bir gedərik Şuşaya.**

”Qarabağı azad etdik yağıdan, düşmənlərə vermədik ki, bir aman” söyləyən, poetik ovqatı nikbin notlara köklənən Fuadın daha bir şeirində də möhtəşəm Qələbəmizlə bağlı yaşanan fərəh hissi, coşğu və ruh yüksəkliyi duyulur:

**Ali Baş Komandan, min əhsən sizə,**
**Ordumuzla ağ gün gətirdin bizə.**
**Qalibiyyətyaraşır ölkəmizə,**
**Gördüm əsgərlərdə qeyrət, hünəri,**
**Zəfərin mübarək, yurdun əsgəri!**

Dövlətimizin atributlarından olan milli bayrağımızın tərənnümünə həsr edilmiş ”Azərbaycan, can bayrağım!” şeiri də bu gün tez-tez səsləndirilən, ruhumuzu təzələyən mahnı mətnlərindəndir. Məğrurluq, enməzlik rəmzi olan üçrəngli bayrağımızla qürrələnən, öyünən şair sevinc duyğularını dilə gətirir. Bu şeir çağdaş poeziyamızda bayrağımızı vəsf edən gözəl bədii nümunələrdəndir:

**Üstündəki qırmızı rəng şəhidlərin al qanıdır,**
**Əsgərlərin döyüş vaxtı and içdiyi Quranıdır.**
**Bayraqların birincisi, birincisi, sultanıdı,**
**Azərbaycan can, bayrağım!**
**Şuşamızda zirvələrdə asılıbdı, enməz, enməz,**
**Üstündəki ay-ulduzla hey parlayır, sönməz, sönməz**
**Azərbaycan, can bayrağım!**

**Zemfira Məhərrəmli,**
**yazıçı-publisist**

# Bazarda kimyəvi maddələrdən hazırlanan qəndlər satılır

## Azad İstehlakçılar Birliyi dövlət orqanlarına məktub hazırlayır



**Azərbaycan və Türkiyə qida sertifikatlarını qarşılıqlı tanıyacaq. Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi və Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi karantin tətbiq edilən zərərli orqanizmlər barədə məlumat mübadiləsi aparacaqlar.**

Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsində əksini tapıb.

Layihəyə görə, hər iki ölkədə qida məhsullarına verilən sertifikat nümunələrinin ekvivalentlik prinsipinə müvafiq olaraq qarşılıqlı mübadiləsi, tanınması və dəyişikliklər barədə məlumat verilməsi təmin olunacaq. Eyni zamanda tərəflər dövlətlərin milli qanunvericiliyinə əsasən, dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış qida məhsulları, eləcə də baytarlıq və fitosanitar nəzarəti altında olan qida məhsulları barədə məlumat mübadiləsi aparacaqlar.

Qeyd edək ki, bu saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə tərəflərin bir-birinə göndərdikləri sonuncu yazılı bildirişin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir. Bu saziş qeyri-müəyyən müddətə qüvvədə qalır. Tərəflərdən biri istənilən vaxt digər tərəfə bu sazişin ləğv edilməsi niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı olaraq məlumat verə bilər. Ləğvetmə belə bildirişin alınmasından 6 ay sonra qüvvəyə minir.

*Qanun layihəsi səsə qoyularaq bir oxunuşda qəbul edilib.*

**Azad İstehlakçılar Birliyinin sədri (AİB) Eyyub Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, AQTA-nın gördüyü işlər dayanıqlı deyil, epizodikdir:** "Məsələn, hazırda AİB ölkədə satılan, təhlükəli kimyəvi yolla hazırlanan kəllə qəndlər barədə dövlət orqanlarına məktub hazırlayır. 2019-cu ildə kimyəvi maddələr qarışdırılan təhlükəli qəndlər barədə AİB AQTA-ya məlumat verib. AQTA prokurorluqla birgə işlər aparıb. Cinayət işi qaldırılıb. Bir neçə müəssisə bağlanıb. Amma bu gün həmin kimyəvi qəndlərin yenidən satıldığını müşahidə edirik".

**E.Hüseynov AQTA-nın Türkiyə ilə apardığı işlərin zəruriliyini vurğulayıb:** "Lakin etiraf etməli olduğumuz bir məqam var. Biz onu da etiraf etməliyik ki, AİB ona illərlə gələn məlumatlar əsasında belə qənaətə gəlib ki, Türkiyədən Azərbaycana genetik modifikasiya olunmuş orqanizmlər (GMO)-bitki məhsulları keçirilir. Onlar sertifikatlaşmada görünmür. Bu məsələdən çox narahatıq. Ölkədə bir neçə demo laboratiya olsa da, partizan kimi susurlar. O cümlədən AQTA-nın laboratoriyası hələ də xaricdən gələn və ya yerli mallar, onların genetik modifikasiyası barədə məlumat vermirlər. Bununla razı deyilik. Arzu edirik ki, ölkələr arasındakı mübadilə sertifikatlar tanınır deyə yoxlanışa ehtiyac görülməməsinə gətirib çıxarmaz. AİB məsələni diqqətdə saxlayacaq. Təəssüf ki, AİB AQTA-da İctimai Şuranın üzvü olsa da, bu kimi analoji məsələlər orada müzakirəyə çıxarılmır. İctimai Şuranın AQTA-nın kollegiyasında qəbul olunan qərarlardan əfsuslar olsun ki, xəbəri yoxdur".

**Sücayət Mehti**

### Təbrik edirik!



Görkəmli bəstəkar, müğənni Arif Səlimovun həyat yoldaşı **Gültalə xanımın** 18-də ad günüdür. Həyat yoldaşı Arif bəy və qızı Zəhra onu təbrik edir, ona cansağlığı, xoşbəxtlik, sevinc dolu günlər arzu edirlər.

Qızı Zəhra həm də anasına bir bənd şeir ərməğan edir:

**Əziz anam, ad günün mübarək!**
**Biz səni ürəkdən təbrik edək.**
**Arzuların güllər açsın deyək,**
**Gültək ətirli anam Gültalə.**

Biz də təbrikə qoşulur, bu gözəl ailəyə səadət dolu günlər arzu edirik.

# Günay İbrahimli ərə getmək istəyir



**Bir neçə gün əvvəl paytaxt restoranlarının birində dostlarını ətrafına yığaraq doğum gününü qeyd edən müğənni Günay İbrahimli yeni yaşında ailə qurmasını arzulayıb.**

Bu barədə sənətçi "Söz baz" proqramına müsahibəsində danışıb. O, illər ərzində həyata keçən istəklərindən də söz açıb:

"Arzular sonsuzdur, heç vaxt bitmir. Aralarında gerçəkləşənləri oldu. Altı ildir butik açmaq arzusunda idim, onu da etdim. Səmimi etiraf edirəm ki, 31 yaşımda gözəl ailəmin olmasını istəyirəm".

# "İctimaiyyəti aldadan qarşı tərəfdir"

## Nərminin atası hədəf göstərdi



**Azərbaycanda böyük rezonans doğuran "Nərmin işi" ilə bağlı ciddi müzakirələr davam edir. İlkin Süleymanov cinayətkar qismində həbs edilsə də, əsl cinayətkarın hələ də azadlıqda olduğuna dair tutarlı arqumentlərə söykənən fikirlər var.**

İddiallarla bağlı mərhumun atası Şərif Quliyev "Şərq"ə danışıb. O bildirib ki, yayılan bütün xəbərlər yalandır:

"Bütün iddiaları qarşı tərəf qaldırır. Hamısı onların günahıdır. Onların qardaşı Adil Süleymanov qardaşıma yaxınlaşıb deyib ki, gəlin bu işi bir yerdə həll edək. Bunlar kimdir ki, iş həll etsin? Bu işi dövlət artıq həll edib.

Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Prezident Administrasiyası bu işlə məşğuldur. Onda bu qurumlar yalan danışır?! Yalan danışan, ictimaiyyəti aldadan qarşı tərəfdir. Müxtəlif "Youtube" kanallarında çıxıb yalan danışırlar. Günahkar İlkindir və bu işdə onun bacıları və anasının əli var".

*Xatırladaq ki, Tovuz rayonunun Dondar Quşçu kənd sakini N.Quliyeva 2019-cu il noyabrın 21-də itkin düşüb, onun meyiti 2020-ci il yanvarın 6-da yandırılmış halda tapılıb. 2020-ci il yanvarın 10-da isə hadisəni törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü İ.Süleymanov saxlanılaraq istintaqa cəlb edilib.*

**Çimnaz Şahlar**

# İntihar halları niyə artır?

## "Hamı sosial şəbəkədədir, amma əslində hamı asosialdır"





**Son günlər gənclərin intihar xəbərlərinin kütləvi hal alması yenidən aktual mövzuya çevrilib. Ötən gün paytaxtda daha iki intihar hadisəsi qeydə alınıb. Birinci intihar hadisəsi paytaxtın Xəzər rayonu, Şüvəlan qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 20 yaşlı Xədicə Yaşar qızı Adıyeva yaşadığı evin həyətində özünü asıb.**

Digər intihar hadisəsi isə Bakının Nəsimi rayonunda baş verib. Məlumata görə, 2000-ci il təvəllüdlü E.Məmmədli özünü binanın 9-cu mərtəbəsinin eyvanından atıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

Bununla yanaşı, dünən Astara sakini də özünü asaraq intihar edib. 1981-ci il təvəllüdlü Zaur Məhərrəm oğlu Sovqatovun meyiti kənd sakinləri tərəfindən aşkarlanıb. Üzərindən çıxan məktuba görə, onun böyük məbləğdə vergi borcu olub.

Faktla bağlı Astara Rayon Prokurorluğunda araşdırma aparılır.

Qeydə alınan intihar hadisələri ilə bağlı "Şərq"ə danışan psixoloq Fərqanə Mehmanqızı bildirib ki, belə hadisələrdə uşaqlıq travmaları böyük rol oynayır: "İntihar, aqresiya, depresiya, panik-atak, bu və ya digər halların daxilində uşaqlıq travmaları yatır. Bu uşaqlıq travması isə böyüyən psixohəssas insanların ətrafın onlara qarşı münasibəti və onların ətrafa qarşı münasibətinin nəticəsidir. İnsan özünü həyata realizə edə bilməyəndə natamamlıq kompleksindən əziyyət çəkir. Bu kompleksdən əziyyət çəkən insanlar isə gec-tez ya qatil olur, ya da intihar edir. Ona görə də bu kimi hallara çox rast gəlinir".

Psixoloq insanların yetərincə sosial olmadığını hesab edir: "Cəmiyyətdə aqresiyadan əziyyət çəkir, empati bacarıqları aşağı düşür. İnsanlar bir-birlərini dinləmirlər və bir-birlərinə qarşı həssaslıq aşağı düşüb. Bu da mənəvi aclığa gətirib çıxarır. Mənəvi aclıqdan əziyyət çəkən insanlar depresiyaya düşürlər. Depresiyanın xroniki hal alması və peşəkarlardan yardım istəməməsi intihara gətirib çıxarır. Bu gün hamı sosial şəbəkədədir, amma əslində hamısı asosialdır".

**Çimnaz Şahlar**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

- **-MÜHASİBAT** (2 AY)
- **-Mobil telefonların təmiri** (3 ay)
- **-KOMPYUTER** (1-3 AY)
- **-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
- **-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
- **-Dizayn** (3-6ay)
- **-Masaj** (3 ay)
- **-Biçmə - Tikiş** (3 ay)
- **-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Nisə Qasımova "böyüməyib"

## O, hələ də özünü gənc hiss edir



**Ötən gün 68 yaşı tamam olan sənətkar Nisə Qasımova açıqlaması ilə diqqət çəkib.**

"Şərq" xəbər verir ki, "Şourum"un kameralarına tuş gələn Xalq artisti cavan olduğunu söyləyib: "Böyümədiyim üçün yaşımı 25 hesab edirəm. Təbii, yaşım yaşdır. Əlhəmdülillah. Allah bundan sonra gözəl, sağlıqlı ömür versin. Özümü böyümədiyimə görə gənc hiss edirəm".

**Aygün**

# "Soska" ilə baş qatma..."

## Nazilə Nadir Qafarzadəyə söz atdı



**Xəbər verdiyimiz kimi, müğənni Nadir Qafarzadə baba olmaq istədiyini söyləyib.**

O, dünyaya gələcək nəvəsinə illər öncə qızıl əmzik alıb.

"Şərq"in məlumatına görə, may ayında övladına toy edəcək şairə Nazilə Səfərli "Şourum" vasitəsilə müğənniyə bu barədə ismarıc göndərib: "Ay Nadir, qızıl "soska" bahalı deyil, 350 manatdır. Biz onu illər öncə etmişik. Qardaşımın birinci övladı dünyaya gələndə gedib qızıl "soska" almışdım. Anam da lağa qoyaraq dedi ki, "çox qədrini biləcəklər". O "soska"nı da uşağa əmizdirmədilər. Gəlinin sağ əlində "razval" var idi. Tez-tez əli qaçırdı... "Soska" evdən yoxa çıxdı. Yəqin, satdılar"-, deyə N.Səfərli vurğulayıb.

Şairə müğənni Nadir Qafarzadəyə söz atıb:

"Ətimi tökmə, "soska" nədir? Doğulacaq nəvənin sənədlərini göstər: bağını, rayonlardakı torpaq sahəsini, xaricdəki obyektlərini... Səndə çox şey var, yalandan "soska"yla baş qatma".

**Aygün**

# Əməkdar artistin villasından 5400 dollar oğurlanıb

## Hadisənin evdə bağban və xidmətçi işləyən ər-arvadın oğlu tərəfindən törədilməsi üzə çıxıb



**Azərbaycanın Əməkdar artisti, "Maestro" adı ilə tanınan skripkaçı Ceyhun İsmayılovun evindən oğurluq edilib.**

Publika.az xəbər verir ki, 1975-ci il təvəllüdlü sənətçinin Sumqayıt şəhəri Qurd dərəsi adlanan ərazidəki bağ evindəki seyfdən 5400 dollar oğurlanıb. Belə ki, ötən il iyul ayının 20-də villanın 2-ci mərtəbəsindəki yataq otağındakı seyfdən açar seçmə üsulu ilə xeyli miqdarda pul naməlum şəraitdə oğurlanıb.

Aparılan araşdırmalar zamanı hadisənin "Maestro" Ceyhunun evində bağban və xidmətçi işləyən və həmin evdə yaşayan ər-arvadın Kamal adlı oğlu tərəfindən törədilməsi üzə çıxıb. Məlum olub ki, vaxtaşırı valideynlərinin yanına gələrək onlara kömək edən 1988-ci il təvəllüdlü Kamal Qulamov seyfin yerini öyrənib və açarı əldə edərək Sumqayıtda surətini çıxarıb. O, daha sonra gizli şəkildə yataq otağına daxil olaraq seyfdəki dollar bağlamalarının arasından 5400 dollar götürüb. Kamal izi itirmək üçün bağlamaların hər birindən müəyyən qədər 100lük dollarları götürüb və pulun bir hissəsini banka ödəyərək kreditini bağlayıb.

Bundan sonra xarici ölkəyə səfərə gedən Əməkdar artist seyfdən sənədlərini götürmək istəyərkən dollar bağlamalarının bir qədər nazikləşdiyini görərək pulların oğurlanmasından şübhələnib. O, pulları saydıqda həqiqətən oğurluğun baş verdiyini görüb.

Faktla bağlı Cinayət Məcəlləsinin "oğurluq" maddəsi ilə iş açılıb. İbtidai istintaq zamanı və məhkəmənin gedişində təqsirləndirilən şəxsin ailəsi oğurlanmış pulları geri qaytarıb və Ceyhun İsmayılov Kamaldan şikayətçi olmayıb.

Məhkəmə Kamal Qulamovun 2 il 6 ay müddətinə azadlığının məhdudlaşdırılması cəzasına məhkum edilməsinə qərar verib və ona elektron nəzarət cihazı təbiq edilib.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC
1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 475



## Avtomobillərə yeni cəza...

### Səs-küy qeydə alan radarlar qurulub

**Sürət həddini aşan avtomobillərin qənimi olan radarlara daha biri əlavə edilib. Yeni radar sistemi səs-küyü də qeydə alacaq.**

Təyin olunmuş həddən yüksək səs-küy yaradan, lazımsız halda siqnal verən, təkərləri "ağladan" avtomobil sürücüləri cərimə olunacaq. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, səs-küyü qeydə alacaq radarlar Fransanın paytaxtı Parisdə quraşdırılıb. Paris bələdiyyə başqanının ekologiya və enerji məsələləri üzrə yardımçısı Dan Lert açıqlamasında "gurultu radarları"nın dövriyyəyə daxil olduğunu, bunun avtomobillərin səs-küyünün qarşısını alacağını deyib. Başqan yardımçısı bildirib ki, radarlar müəyyən olunmuş həddən yüksək səs-küy salan avtomobillərin seriya və nömrələrinin fotosunu çəkəcək, faktdan qaça bilməyən avtomobil sahibi, nəticədə cərimələnəcək. Yeni radarlar "Meduza" adlanır. Bu radarlar desipel ölçülərini qeydə alır. Cərimələrsə 2023-cü ildən etibarən tətbiq edilməyə başlanacaq. Avropa Ətraf Mühit Agentliyi Parisi Avropanın ən səs-küylü şəhərlərindən biri hesab edir. Agentlik şəhərlərdə 55 desibeldən artıq gurultu olmasını normanın aşılması hesab edir. Gurultulu şəhərlər sırasında London, Vyana və Roma da yer alır. Görəsən, o radarlar Bakıdakı gurultunu ölçsə, "şkala" hansı yüksəkliyə qalxar?

**Məlahət**







# Snayper bələdiyyə sədri oldu

## Əhali ilə necə "davranacağını" bilir



**Əfqanıstanda 20 ildən sonra hakimiyyətə gələn "Taliban" qruplaşmasının ən dəqiq snayperi sayılan 25 yaşlı Damullah Mohibullah Movaffaq Maymana qəsəbəsinin bələdiyyə sədri seçilib. "Yox artıq!" demək də olardı. Amma Movaffaq, soyadından da göründüyü kimi, deyəsən, işə əməlli-başlı ciddi girişib. "Taliban"ın snayperi varlı tacir ailəsinin oğludur, həm də savadlıymış.**

Əfqanıstanın şimal-qərbindəki Fəryab əyalətinin mərkəzi Maymana qəsəbəsində böyüdüyü, qəsəbə məktəbini müvəffəqiyyətlə bitirdiyi bildirilir. "Şərq" NTV-yə istinadən xəbər verir ki, ABŞ-ın nəhayət ki, Əfqanıstandan əl çəkməsiylə taliblər hakimiyyətdə getdikcə daha çox möhkəmlənirlər. Snayperlikdən bələdiyyə sədrliyinə keçid edən Damullah Movaffaq hazırda 100 min əhalisi olan qəsəbənin problemlərinin həlli ilə - lağımların açılması, yolların layihələndirilməsi və məhəllə davalarının önünün alınması kimi işlərlə məşğuldur. Movaffaq "müharibədə hədəflərim bəlli idi: xarici müdaxiləni, işğalı, ayrı-seçkiliyi, ədalətsizliyi aradan qaldırmaq. Hədəflərim indi dəyişib. Korrupsiya ilə mücadilə aparmaq və ölkəmi rifaha qovuşdurmaq", deyir. Yeni bələdiyyə sədri qəsəbə küçələrini gəzir və əhalinin şikayətlərini dinləyir. Yol kənarlarındakı arxları təmizləyən bələdiyyə işçilərinin işi ilə maraqlanır (Heç bizdə belə bələdiyyə sədri yoxdu - M.R). Sədrin köməkçisi isə "Taliban"dan deyil. Seyid Əhməd Geyasi yeni sədrin gənc, təhsilli və həm də qəsəbə sakini olmasının üstünlüklərindən danışıb: "Əhali ilə necə rəftar edəcəyini bilir. Ofisdəki divarda döyüş sənətləri yarışmasında aldığı sertifikat və lisey diplomu asılıb". Movaffaq 19 yaşında "Taliban"a qoşulub və ABŞ əsgərlərinə qarşı döyüşüb. Lakin o, müharibə dəhşətlərini xatırlamağı sevmir. Və "həyatım çox enişli-yoxuşlu oldu. Bundan sonra ölkənin rifahı üçün "döyüşəcəm", deyir.

**Məlahət Rzayeva**

## Nazir müavini hər kəsin dilinə düşdü

### Ölkə müharibənin bir addımlığında, o isə Qüdsdə tətil kefindədir



**Independent (Türkcə) xəbər verir ki, dünya Ukrayna-Rusiya qarşıdurmasına kilidlənmiş vəziyyətdə, ölkə əhalisi də "müharibə hər an başlaya bilər" həyəcanı içində olduğu bir vaxtda nazir müavini Qüdsdə tətil kefindədir. Ukraynanın xarici işlər nazirinin müavini, tatar əsilli Əminə Cabbarova Qüds ziyarəti ilə bağlı fotolarını instagram səhifəsində paylaşıb. Bununla da hər kəsin dilinə düşüb. Amma ölkəsinin gələcək taleyinə biganə qalan təkcə bu xanım deyil. Ukraynanın zəngin ailələri çoxdan özəl təyyarələrlə ölkədən çıxıb. Xarici işlər nazirinin müavininin hazırkı həssas dönəmdə istirahətə çıxması da siyasi etika, dövlət və milli maraqlara uyğun hesab edilmir. Qeyd edilir ki, Əminə Cabbarova nazir müavini təyin edilməzdən əvvəl televiziyalardan birində çalışıb. Nazir müavininin Qüds ziyarəti, getdiyi məkan hər nə qədər müqəddəs olsa da, indiki vaxtda yersiz görünür.**

**Məlahət**

## İzləyiciləri sevindi

### Kıvanç Tatlıtuğun hamilə arvadının paylaşımı gündəm oldu



**Türkiyəli məşhur aktyor Kıvanç Tatlıtuğun həyat yoldaşı Başak Dizerin yeni paylaşımı izləyiciləri sevindirib.**

**Oxu.az xəbər verir ki, hamiləliyin çox yaraşdığı deyilən Başak Dizerin qarın fonunda yeni fotosu çox sayda bəyənmə qazanıb. 6 il əvvəl evlənən cütlüyün oğularının dünyaya gələcəyi xəbəri yayılandan, bir çox brend markalardan cütlüyə uşaq üçün reklam təklifi gəlib.**

## Günlərə bölmək lazımdır

### Ürək-damarları qorumaq üçün həftədə 150 dəqiqə gəzməlisiz



**Damarların aterosklerozu - tıxanması ürəkdə infarkt və insultun birinci səbəbidir. Eləcə də həkimlər damar tıxanmasının diabet əmələ gətirdiyini bildirir.**

**Medicina.az xəbər verir ki, həkim endokrinoloq Tatyana Rutkovskaya ürək-damarları qorumaq üçün həftədə 150 dəqiqə - bunu günlərə bölmək lazımdır - aerobika məşqləri etməyi məsləhət görüb.**

**Optimal variant - sakit şəkildə gəzmək, Skandinaviya gəzişi və üzməkdir.**

**Ürəyi qorumaq üçün artıq çəkini azaltmaq lazımdır.**

**Gündəlik kalorini yeməyi 4-5 yerə bölməklə paylaşdırmaq olar.**

**Belə ki, gündəlik kalorinin 25% səhər yeməyi, günorta yeməyi 35%, axşam yeməyi 15% olmalıdır. Qalan faizləri yemək aralıqlarına bölüşdürün.**

**Eləcə də bel dairəsinin, qarın hissənin incəlməsinə çalışmaq lazımdır.**

**Birdən yox, tədricən bədən çəkisini 1 il ərzində 20% azaltmaq ürək-damarları kifayət qədər sağlamlaşdırır.**



## Telefona belə baxmaq "qrıja" əmələ gətirir

**Telefona baxarkən daim başın və boyunun aşağı bucaq altında əyilərkən ağırlıq boynun fəqərələri üzərinə düşür. Boyun gün ərzində bu vəziyyətdə duruş üçün nəzərdə tutulmayıb.**

Medicina.az xəbər verir ki, fizioterapistlər son zamanlar 18-20 yaşlı gənclərdə boyunda degerenativ dəyişiklik, fəqərələrdə yırtığa meyilliyin artmasının bir səbəbini telefon və planşetlərdən istifadədə görür.

Uzun müddət əyilmiş vəziyyətdə dayanan boyun fəqərələrində narahatçılıqlar meydana gəlməyə başlayır. Əgər gənc yaşlı uşaqlar telefonla normadan çox məşğul olarlarsa, onların fəqərələri əyilir və fəqərəarası sinirlər sıxılmağa başlayır. Sinirlər sıxıldıqca onların qidalandırdığı yerlər də zərər görməyə başlayır. Boyun əzələləri gərginləşir və boyunda, başda ağrılar meydana çıxmağa başlayır.

ABŞ alimlərinin tədqiqatlarına görə, son 5 ildə əhalinin 58%-inin boyun fəqərələrindəki problemlərin əmələ gəlməsində telefon, planşet və notbukların səbəb olduğu qənaətinə gəlmişlər.

Buna görə də telefonla uzun müddət məşğul olduqda, telefonu elə tutmaq lazımdır ki, boyuna çox yük düşməsin.

Azyaşlı uşaqlara və gənclərə telefonla çox oynamağın zərərlərini başa salmaq və onların boyun vəziyyətinə nəzarət etmək lazımdır.

*Şəkildə telefonu düzgün tutmaq qaydası göstərilib.*



## "Mahkum"un aktyoru evlilik qərarı verib

**Türkiyəli aktyor Anıl İlter ötən gün "Sevgililər gününü" sevgilisi, voleybolçu Sinem Yıldızla birlikdə qeyd edib.**

Axşam.az xəbər verir ki, aktyor iki ildir davam edən münasibətlərini rəsmiləşdirmək fikrində olduğunu bildirib:

"Çox gözəl münasibətimiz var. Hələ toy üçün hər hansı bir tarix dəqiqləşdirməsək də, bu birlikdəliyi evliliklə taclandıracağıq".

Qeyd edək ki, Anıl 2019-cu ildə İpeklə olan 10 illik evliliyini bitirib. O, hazırda "Mahkum" serialında "prokuror Tahir" obrazını canlandırır.

## 20 günlük körpəyə işgəncə verdilər

### "Ana" və "ata" həbs edildi



**İstanbulun Bahçelievlər Zəfər məhəlləsinin sakinləri Tekin və Merve Ö. polis tərəfindən şübhəli şəxs qismində saxlanılıb. Bu barədə "Şərq" "Milliyet.com"a istinadən xəbər verir.**

Məlumata görə, 20 gün əvvəl dünyaya gəlmiş, Yağmur adı qoyulmuş körpənin vəziyyəti ağırlaşdığı üçün valideynləri onu xəstəxanaya aparıb. Həkim müayinəsi zamanı körpənin sümüklərinin qırıq, bədənində isə yanıq izləri olduğu müəyyənləşib. Yanıq izlərinin siqaret kötüyündən yarandığı ehtimalı üzərində dayanılıb. Körpəyə işgəncə verildiyi şübhəsiylə polisə xəbər verilib və körpənin valideynləri saxlanılıb. Körpə Yağmurun anası polisə verdiyi ifadədə "yuxulu vəziyyətdə körpənin üstünə yıxılmışam, sümüklərində qırıqlar bu səbəbdəndir", söyləyib. Yanıq izləri barədə isə "hava soyuq idi, onu isitməyə çalışırdım", deyib. Qadının ifadələrindən şübhələnən polis onu nəzarət altına alıb və istintaq başladılıb. Körpənin atası isə körpənin vəziyyətindən xəbərsiz olduğunu deyib və azad edilib. Körpə Yağmur 4 ay xəstəxanada müalicə edilsə də, həyatını xilas etmək mümkün olmayıb.

**Məlahət**

## Arvad evdə tez-tez dava salırdı

### Təqaüdçü müəllim dözməyib həyat yoldaşını öldürdü, övladları isə atalarına bəraət qazandırdı



**Hadisə Türkiyənin Konya şəhərində yaşanıb. Təqaüddə olan müəllim, 70 yaşlı Turqut Şimşək, xərçəng xəstəsi olan həyat yoldaşını güllələyərək öldürüb.**

Sonra da polis şöbəsinə gedərək cinayəti etiraf edib və təslim olub. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, məhkəmə zamanı Turqut Şimşək həyat yoldaşının davamlı söz-söhbət salmasından bezdiyini deyib: "Mənimlə 40 il əvvəlki məsələlərin haqq-hesabını çəkirdi. Bu dəfə də gözü dönmüş halda, yenə haqq-hesab çəkməyə başladı və üstümə bıçaqla gəldi. Aramızda 1 metr məsafə vardı. Mən də tapançamı çıxarıb atəş açdım. Onu öldürmək niyyətim yox idi. Nişan almadan, hara gəldi atəş açdım". Hadisə yerinə gələn polis və təcili yardımın apardığı araşdırma zamanı məlum olub ki, güllə qadının başından dəyib və o, hadisə yerində ölüb. Şimşək ailəsinin məhkəmədə iştirak edən 4 övladı isə analarını öldürən atadan şikayətçi olmayıb. 4 övladdan biri - Adil Şimşək deyib ki, ana ataya qarşı daim əsəbi, kinli davranırdı. Bu hadisədən əvvəl də anaları atalarına bıçaq çəkibmiş. Digər oğul Əli Şimşək də "hər dəfə evə gedəndə dava etdiklərini görürdüm. Anam keçmişdə baş verənləri unutmurdu, hər dəfə xatırladıb dava salırdı. Atamdan şikayətçi deyiləm", söyləyib. Məhkəmənin 70 yaşlı kişiyə hansı cəza verəcəyi bir neçə gün sonra məlum olacaq.

**Məlahət**